31 yanvar 2020-ci il
№04 (8868)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

Təhsil millətin gələcəyidir!
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

## Bu sayımızda

**Təhsil naziri Salyan məktəbində olub** ⇨səh.4

**Portala daxil ol, təhsil aldığın universiteti dəyiş** ⇨səh.4

**BMU aliminin yeni ixtirası ABŞ-da patent alıb** ⇨səh.5

**"Ən böyük arzum Qarabağımızı geri almaqdır"** ⇨səh.7

# 2020-ci ilin təhsil hədəfləri

## Aparılan məqsədyönlü işlər öz müsbət bəhrələrini verməkdədir



Məlumdur ki, müasir çağırışlar dövründə cəmiyyət həyatının bütün sahələrində təhsilin yaradıcı rolu, missiyası xüsusi əhəmiyyət kəsb etməkdədir. Məhz təhsil sahəsində baş verən keyfiyyət dəyişiklikləri müasir dövrdə dünyanın sürətlə dəyişən hədəflərinə adekvat cavab verməyə imkan verir. 2019-cu ildə ölkəmizin təhsil sistemində baş vermiş müsbət dəyişikliklərə ümumi baxış və 2020-ci ildə qarşıda duran növbəti hədəflərin təhlili göstərir ki, Təhsil Nazirliyi tərəfindən bu sahədə aparılan məqsədyönlü işlər öz müsbət bəhrələrini verməkdədir. Bu barədə yanvarın 27-də Təhsil Nazirliyində keçirilmiş mətbuat konfransında Təhsil naziri Ceyhun Bayramov ətraflı məlumat verib. Təhsil naziri ictimaiyyət tərəfindən tez-tez qaldırılan çoxsaylı məsələlərə də aydınlıq gətirib. Ümumtəhsil sahəsində baş verən dəyişikliklərdən danışarkən, Ceyhun Bayramov ölkəmizdə həyata keçirilən genişmiqyaslı islahatların təhsil sektoruna müsbət təsir göstərdiyini, son illər təhsil üzrə bir sıra dövlət sənədlərinin və proqramların qəbul edildiyini, təhsilin inkişafının dövlət siyasətində əsas prioritetlərdən biri olduğunu bildirib.

⇨Ardı səh.3

# Ortaq dəyərlərin işığında

## Bakıda Beynəlxalq Türk Akademiyasının III iclası keçirilib

Yanvarın 30-da Bakıda Beynəlxalq Türk Akademiyası Elmi Şurasının III iclası keçirilib. Tədbirdə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti Ramiz Mehdiyev, Təhsil naziri Ceyhun Bayramov, Qazaxıstan və Qırğızıstanın Təhsil nazirlərinin müavinləri Kanat Sarsembayev və Japarkul Taşiyev, Türkiyə Respublikası Milli Təhsil Nazirliyi Təlim və Təhsil İdarəsinin rəhbəri Burhanettin Dönməz, Türkiyə Respublikası Ali Təhsil Şurasının sədr müavini Mehmet Şişman, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) Baş katibi Bağdad Amreyev, Türkdilli Ölkələrin Parlament Assambleyasının Baş katibi Altınbek Mamayusupov, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, TÜRKSOY-un Baş katibinin müavini Bilal Çakıcı, o cümlədən Türkiyə, Qazaxıstan, Qırğızıstan, Macarıstan və Özbəkistanın ölkəmizdə akkreditə olunmuş səfir və diplomatları iştirak ediblər.

Təhsil naziri Ceyhun Bayramov çıxış edərək Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının gənc təşkilat olmasına baxmayaraq qısa müddət ərzində bir sıra əhəmiyyətli tədbirlər həyata keçirdiyini və öz fəaliyyət sahəsini genişləndirdiyini bildirib. Nazir qeyd edib ki, ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyevin tarixi xidmətləri nəticəsində Azərbaycan türk dünyasının ayrılmaz bir hissəsi kimi Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və bütün türk xalqları ilə qarşılıqlı əməkdaşlıq əlaqələrini yüksək səviyyəyə çatdırıb: "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası çərçivəsində mövcud olan qarşılıqlı əməkdaşlıq əlaqələrinin genişlənəcəyinə, türk xalqlarının mədəni və mənəvi irsinin tədqiqinə dair nailiyyətlərimizin artacağına, bu xüsusda mühüm rol oynayan təhsil və elm sahəsində əməkdaşlığın inkişaf edəcəyinə ümid edirəm".

Ceyhun Bayramov türk dövlətlərinin əməkdaşlığı çərçivəsində keçirilən tədbirlərin təhsil sahəsinə verəcəyi töhfəni yüksək qiymətləndirib. Nazir bildirib ki, üzv dövlətlər arasında elm və təhsilin inkişaf etdirilməsi, tələbə-müəllim mübadiləsinin həyata keçirilməsi, qarşılıqlı təcrübə mübadiləsinin aparılması, davamlı intellektual əməkdaşlığın təmin edilməsi Türk Dövlətləri Əməkdaşlıq Şurasının qarşısında duran əsas məsələlərdən biridir. O qeyd edib ki, Beynəlxalq Türk Akademiyası çərçivəsində 15-ci əsrədək olan ortaq türk tarixi dərsliyinin hazırlanması təhsil sahəsində əməkdaşlığın bariz nümunəsidir.

⇨Ardı səh.2

## Xaricdə doktorantura təhsili

Yanvarın 25-də xaricdə doktorantura təhsili almaq istəyənlər üçün sənəd qəbulu artıq başa çatdı. Sevindirici haldır ki, ölkə üçün prioritet hesab olunan ixtisaslar üzrə doktorantura təhsili almaq istəyənlər kifayət qədərdir.

Qeyd edək ki, 2019-cu il noyabrın 13-də Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində "Xarici ölkələrin ali təhsil müəssisələrində doktorantura səviyyəsi üzrə təhsil alacaq Azərbaycan Respublikası vətəndaşlarının seçim Qaydaları" təsdiq edildi. Bu Qaydalar Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş Dövlət Proqramı çərçivəsində xarici ölkələrin ali təhsil müəssisələrində doktorantura səviyyəsi üzrə təhsil alacaq Azərbaycan vətəndaşlarının (proqram iştirakçıları) seçimi meyarlarını və prosedurlarını müəyyən edir.

⇨Ardı səh.2

# Gəlin "Bir" olaq!

"Gəlin, "Bir" olaq". Bu çağırışa bu dəfə Azərbaycan Milli Paralimpiya Komitəsindən (AMPK) cavab gəldi. "Bir" könüllü olmaq üçün qərar verildi, imzalar atıldı. Azərbaycanda könüllülük hərəkatının başlanması elə də uzun müddəti əhatə etməsə də, gənclərdən ibarət bu qüvvə ildən-ilə güclənir, böyüyür, təşkilatlanır. Fəal, həvəsli, çevik və enerjili gənclərin qüvvəsi səmərəli fəaliyyətə yönəldilir. Nəticədə həyata keçirilən kütləvi tədbirlər, taleyüklü proseslər daha rahat və operativ təşkil olunur. Təbiidir ki, söhbət gənclərdən gedirsə, ağla ilk gələn tələbələr olur. Təsadüfi deyil ki, könüllülər arasında tələbələrin sayı daha çoxdur. Onların fəaliyyəti hər sahədə görünsə də, ayrıca bir Proqram ətrafında da birləşiblər. Söhbət könüllüləri vahid məlumat bazasında birləşdirən, 2015-ci ilin dekabrından fəaliyyət göstərən və fəaliyyəti ilə seçilən "Bir" Tələbə-Könüllü Proqramından gedir. Ölkəmizin 11 regionunda 26 ali, 18 orta ixtisas müəssisəsi olmaqla, ümumilikdə 44 təhsil müəssisəsini əhatə edən Təhsil Nazirliyinin "Bir" Tələbə-Könüllü Proqramı 24000-dən çox tələbə-könüllünü birləşdirir və Azərbaycanda könüllülük fəaliyyətinin istiqamətləndirilməsinə kömək edir.

### Əməkdaşlığa BİR imza

Öncəliklə qeyd edək ki, Proqram indiyədək Bakı, Sumqayıt, Gəncə, Şəki, Masallı, Lənkəran, Quba, Göyçay, Mingəçevir, Ağdam, Şamaxıda keçirilən 550-dən çox müxtəlif səviyyəli tədbirləri müşayiət, bir sıra tədbir və aksiyaları təşkil edib. Bu silsilədən olanlardan biri də 2019 Formula 1 Azərbaycan Qran Pri yarışlarıdır. Bu yarışda, bütövlükdə bütün kütləvi tədbirlərdə olduğu kimi "Bir" tələbə-könüllülər fəal iştirak edib. Azərbaycan Milli Paralimpiya Komitəsində (AMPK) Təhsil Nazirliyinin "Bir" Tələbə-Könüllü Proqramı ilə anlaşma memorandumu imzalanarkən xüsusən bu fəaliyyətə diqqət çəkilib. Azərbaycan Prezidentinin Sərəncamı ilə elan olunan "Könüllülər ili" çərçivəsində rəsmiləşdirilən bu əməkdaşlıqda ölkədə aparıcı könüllü hərəkatlarından olan "BİR" tələbə-könüllülərin adı xüsusilə vurğulanıb.

Memorandumu Azərbaycan Milli Paralimpiya Komitəsinin prezidenti İlqar Rəhimov və Təhsil Nazirliyinin "Bir" Tələbə-Könüllü Proqramının rəhbəri Canoğlan İlyasov imzalayıb.

### Könüllülər paralimpiyaçılar üçün nə ifadə edir?

Azərbaycan Milli Paralimpiya Komitəsinin prezidenti İlqar Rəhimov Komitənin fəaliyyəti, həyata keçirdiyi uğurlu tədbirlərdən danışarkən "Bir" tələbə-könüllünün bu tədbirlərə qatqısını xüsusi vurğulayıb. Yerli və beynəlxalq yarışların təşkilində tələbə-könüllülərin dəstəyini, ölkədə olan könüllü hərəkatlarının əhəmiyyətini qeyd edib: "Təşkil etdiyimiz idman və başqa tədbirlərdə tələbə-könüllülər daim bizim yanımızdadır.

⇨Ardı səh.4

## Rusiya 2020-2021-ci tədris ili üzrə təqaüd proqramı elan edir

Rusiya Federasiyası 2020-2021-ci tədris ili üzrə "Study in Russia" adlı təqaüd proqramı elan edir.

Proqramda iştirak üçün sənədlərin qəbulu *https://edu.rs.gov.ru/* internet səhifəsində göstərilən qaydada həyata keçirilir.

Təqaüd proqramına müraciət etmək istəyən namizədlər üçün yaş məhdudiyyəti yoxdur.

Təqaüd proqramı çərçivəsində təhsilə dair əlavə məlumatlarla elan vasitəsi ilə tanış ola bilərsiniz.



# Məktəblilər yol hərəkəti təhlükəsizliyi ilə bağlı maarifləndirilir

Səh.8

## Tullantıdan incəsənətə

Həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrin ən böyük problemlərindən biri ətraf mühitin mühafizəsi və təhlükəli tullantılardan təmizlənməsidir. Bu halın azalmaq əvəzinə getdikcə çoxalması insanları sözügedən məsələ barədə düşünməyə məcbur edir.

Uzun-uzadı düşüncələrin və aparılan müzakirələrin sonunda gəlinən qənaət ondan ibarətdir ki, təbiəti qorumaq atılan tullantının miqdarını azaltmaqdan keçir. Beləliklə, plastik, rezin və bunlar kimi çoxsaylı materiallar var ki, həyatımızda yeri çox böyük olsa da, təbiət üçün təhlükəlidir. Odur ki, imtina etmək mümkün olmadığından, onlarla yaşamağı öyrənməliyik. Məhz bu məqsədlə ümumtəhsil məktəblərində bir müsabiqəyə start verilib. "Tullantıdan incəsənətə" adlanan bu müsabiqə Bakı məktəblilərini təbiət üçün səfərbər edib.

⇨Ardı səh.8

## RƏSMİ XRONİKA



- Prezident İlham Əliyev yanvarın 30-da ATƏT Parlament Assambleyasının prezidenti Georgi Tsereteli qəbul edib.
- Fransa Respublikasının Prezidenti Emmanuel Makron yanvarın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.
- Dövlət başçısı İlham Əliyev yanvarın 30-da X.S.Qocayevin (Xeyrəddin Qocanın) "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev yanvarın 30-da "Azərbaycan Respublikasında yeni tip koronavirusun yaratdığı xəstəliyin (qripi xəstəliyinin) qarşısının alınması və bu sahədə bütün qurumların birgə fəaliyyətinin əlaqələndirilməsi üzrə Dövlət Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 16 fevral tarixli 1320 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.
- Dövlət başçısı İlham Əliyev yanvarın 30-da Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev yanvarın 30-da Goranboy rayonunda əkin sahələrinin və əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün subartezian quyularının layihələndirilməsi və qazılması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.
- Dövlət başçısı İlham Əliyev yanvarın 30-da Azərbaycan Respublikası Prezidentinin "Texniki yardım və qrant alınmasına dair sazişlərin bağlanması və təsdiq edilməsi Qaydalarının təsdiq edilməsi haqqında" 2006-cı il 17 aprel tarixli 388 nömrəli, "Dövlətə məxsus olan hüquqi şəxslərin daxili və xarici borcalması Qaydası"nın təsdiq haqqında" 2016-cı il 28 dekabr tarixli 1182 nömrəli, "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 26 iyun tarixli 148 nömrəli və "Azərbaycan Respublikası adından borc alınması və zəmanət verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2018-ci il 18 dekabr tarixli 410 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.
- Dövlət başçısı İlham Əliyev yanvarın 30-da "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 27 may tarixli 237 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.
- Prezident İlham Əliyev yanvarın 27-də Sumqayıt şəhərinin qəsəbələrində və yeni yaşayış massivlərində avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

## Nazir müavini STEAM layihəsinin tətbiq olunduğu məktəblərdə

Təhsil nazirinin müavini Mahabbət Vəliyeva "STEAM Azerbaijan" layihəsi çərçivəsində görülən işlərlə tanışlıq üçün Bakı şəhəri 220, 245 və 114 nömrəli tam orta məktəblərdə olub.

Nazir müavini STEAM dərslərini tədris edən müəllimlərlə görüşüb, STEAM məzmununun mənimsənilmə səviyyəsi, yeni metodologiya, konsepsiya və yanaşmaların müəllimlər tərəfindən tətbiqi ilə maraqlanıb. Həmçinin təhsilalanların dərs prosesi zamanı hazırladıqları əl işləri və kiçik layihələrlə tanış olub.

Daha sonra STEAM dərslərinin tədrisi və gözləntilərə dair geniş müzakirələr aparılıb.

Qeyd edək ki, 2019-2020-ci tədris ilindən etibarən 42 ümumtəhsil məktəbində "STEAM Azerbaijan" layihəsinin tətbiqinə başlanılıb.

# Ortaq dəyərlərin işığında

⇦ Əvvəli səh.1

Oruc MUSTAFAYEV

Nazir ortaq türk coğrafiyası və ədəbiyyatı dərsliklərinin hazırlanması üzrə məhsuldar fəaliyyətin davam etdiriləcəyinə, ölkələrimiz arasında təhsil sahəsində əlaqələrin yüksək səviyyəyə çatdırılacağına inandığını bildirib. Qeyd edib ki, azərbaycanlı şagirdlər orta məktəblərimizdə qədim türk tarixinin ən dəyərli nümunələrini öyrənirlər. "Biz öz dərsliklərimizdə türk xalqlarının tarixinin öyrənilməsinə diqqət yetiririk. Buna baxmayaraq, bütün ortaq dəyərlərimizin sistemli şəkildə gənc nəslə ötürülməsi və çatdırılmasında ortaq tarix və coğrafiya dərsliklərinin əhəmiyyəti olduqca böyükdür. Türk dünyasının görkəmli mütəfəkkirlərinin kitablarının dərc olunması da yüksələn dinamik əməkdaşlığın nümunəsidir". Təhsil naziri əlavə edib ki, türk cümhuriyyətlərində elmə mühüm diqqət ayrılır, alimlərimizin çoxsaylı əsərləri dərc olunur. Elmi əməkdaşlığın sıx əlaqələndirilməsi və dünyanın mötəbər elmi nəşrlərində elm adamlarımızın birgə tədqiqat məhsullarının dərc olunması, birgə elmi tədbirlərin keçirilməsi ölkələrimizin elmi potensialının gücləndirilməsinə ciddi təsir edə bilər.



Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdırali isə rəhbərlik etdiyi təşkilatın ötən ilki fəaliyyətinin uğurlu olduğunu, bir sıra təşkilatlarla əhəmiyyətli layihələrin reallaşdırıldığını, akademiya çərçivəsində 30-dan çox beynəlxalq forum, simpozium, seminarların keçirildiyi, eyni zamanda, akademiya tərəfindən müxtəlif dillərdə 24 yeni kitab nəşr olunduğunu diqqətə çatdırıb".

Şura üzvləri ortaq türk dəyərlərinin qorunub saxlanılması, ortaq dil, dərsliklərin, birgə elmi tədqiqatların aparılması, türk coğrafiyasında elm və təhsil əlaqələrinin intensivləşdirilməsi, təhsil və elm sahəsində əməkdaşlığın möhkəmləndirilməsi, tələbə və alimlər üçün mübadilə proqramlarının təşkil olunmasının vacibliyini bildiriblər.

Elmi Şuranın üzvləri 2019-cu ildə görülmüş işləri yüksək qiymətləndirib, akademiyanın 2020-ci il üçün Fəaliyyət Planını təsdiq edib və növbəti iclasın Türkiyədə keçirilməsi barədə razılığa gəliblər.

Daha sonra təşkilatın 2020-ci il üçün əsas elmi istiqamətləri, fəaliyyət prioritetləri və keçirilməsi planlaşdırılan türk dünyasının önəmli yubiley tədbirlərinin siyahısı, o cümlədən təhsil və elm sahəsində əməkdaşlıq məsələləri müzakirə edilərək təsdiqlənib. Akademiyanın prezidenti Darxan Kıdırali qeyd edib ki, 2020-ci il üçün fəaliyyət planı çərçivəsində bu il Monqolustanda "Tonyukuk" abidəsinin 1300, "Manas" dastanının 1025, Abay Kunanbayevin anadan olmasının 175, Üzeyir Hacıbəylinin anadan olmasının 135, AMEA-nın yaradılmasının 75, Beynəlxalq Türk Akademiyasının yaradılmasının 10-cu ildönümləri keçiriləcək. Təhsil naziri Ceyhun Bayramovun təklifi ilə böyük Azərbaycan yazıçısı Əbdürrəhim bəy Haqverdiyevin 150 və ölkəmizdə neft-sənaye sahəsinin inkişafına mühüm töhfələr vermiş Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin 100 illik yubileyləri də təşkilatın tədbirlər planına daxil edilib.

Beynəlxalq Türk Akademiyası Elmi Şurasının III iclası akademiya tərəfindən Abay 175 lövhəsinin Təhsil naziri Ceyhun Bayramova təqdim olunması ilə yekunlaşıb. Eyni zamanda, 2020-ci il üzrə Elmi Şuraya sədrliyin Azərbaycan Təhsil Nazirliyinə keçdiyini bildirən lövhə Ceyhun Bayramova təqdim edilib.

# Məktəblilər "NBA" Azərbaycan Yeniyetmələr Liqasında




Amerika Milli Basketbol Assosiasiyasının (NBA) və Azərbaycan Basketbol Federasiyasının (ABF) təşkilatçılığı ilə Azərbaycanda 12-14 yaşlı məktəbli oğlan və qızların iştirakı ilə keçiriləcək NBA Azərbaycan Yeniyetmələr Liqasının təqdimat mərasimi keçirilib.

Tədbirdə Gənclər və İdman naziri Azad Rəhimov, Təhsil nazirinin müavini Firudin Qurbanov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, NBA-nın Avropa, Afrika və Yaxın Şərq ölkələri üzrə vitse-prezidenti Xesus Bueno Paskual, ABŞ-ın ölkəmizdəki səfiri Li Litzenberg, Azərbaycan Basketbol Federasiyasının prezidenti Nadir Nəsibov iştirak edib.

Mərasimdə çıxış edən Gənclər və İdman naziri Azad Rəhimov dövlətimizin idmana diqqət və qayğısından danışıb. Azad Rəhimov bildirib ki, Azərbaycan idmanı gündən-günə inkişaf edir və idmanın mövcud maddi-texniki bazası basketbolun da tərəqqisinə imkan verir. A.Rəhimov idmançılarımızın ötən il ərzində əldə etdiyi nailiyyətlərə də toxunub.

Təhsil nazirinin müavini Firudin Qurbanov çıxışında ölkəmizdə keçiriləcək NBA Azərbaycan Yeniyetmələr Liqasının əhəmiyyətindən danışıb, bu layihənin məktəblilərin sağlam həyat tərzinə istiqamətləndirilməsində, eyni zamanda istedadlı idmançıların üzə çıxarılmasında müsbət rol oynayacağını qeyd edib. Firudin Qurbanov bildirib ki, bu addım gələcəkdə Azərbaycan məktəblərinin hər birində basketbol komandalarının yaranmasına səbəb olacaq. Yeniyetmələr liqasının yaradılması sayəsində yaxın bir il ərzində regionlarda da bu idman növünün kütləviləşməsinin artacağını qeyd edən Firudin Qurbanov bu işdə əməyi keçən hər bir şəxsə öz təşəkkürünü bildirib.

Çıxış edən digər qonaqlar layihə barədə öz fikirlərini bildirib, təşkilatçılara uğurlar arzu ediblər.

Tədbirin sonunda media nümayəndələrinin sualları cavablandırılıb, rəsmi qonağa xatirə hədiyyəsi təqdim olunub.

Qeyd edək ki, liqanın oyunları cari ilin mart-may aylarında NBA sistemi və struktur quruluşuna uyğun müəyyən edilmiş qaydalar əsasında keçiriləcək. Layihə çərçivəsində ölkə üzrə oğlan və qızlardan təşkil edilmiş 30 komanda müəyyən ediləcək.

# Xaricdə doktorantura təhsili

⇦ Əvvəli səh.1

Niyazi RƏHİMOV

Proqram iştirakçıları bu Qaydalarla müəyyən edilmiş seçim meyarlarına uyğunluğun qiymətləndirilməsinin nəticələrinə görə, xarici ölkələrin ali təhsil müəssisələrində doktorantura səviyyəsi üzrə təhsil almaq istəyən və ya təhsil alan Azərbaycan Respublikasının vətəndaşları (namizədlər) sırasından seçilirlər.

Dövlət hesabına Azərbaycan Respublikasının ali təhsil müəssisələrində, elmi müəssisə və təşkilatlarda, Azərbaycan Milli Elmlər Akademiyasında doktorantura səviyyəsi üzrə təhsilin normativ müddətinin yarısından artıq müddətdə təhsil alan, doktorantura səviyyəsi üzrə təhsili başa vurmuş, habelə Azərbaycan Respublikasının dövlət proqramları və beynəlxalq müqavilələri çərçivəsində xarici ölkələrin ali təhsil müəssisələrində doktorantura səviyyəsi üzrə təhsil almış şəxslər proqram iştirakçılarının seçilməsində namizəd qismində iştirak edə bilməzlər.

### Bəs, iştirakçılar hansı meyarlar əsasında seçiləcək?

Proqram iştirakçılarının seçim meyarlarına görə namizədin xarici ölkənin ali təhsil müəssisəsində doktorantura səviyyəsi üzrə təhsil almaq istədiyi və ya təhsil aldığı ixtisas istiqaməti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu ildə müvafiq qərarı ilə müəyyən edilmiş "Azərbaycan Respublikası vətəndaşlarının xaricdə doktorantura səviyyəsi üzrə təhsili üçün prioritet ixtisas istiqamətləri və ixtisasları"na uyğun olmalıdır. Bundan başqa, namizədin xarici ali təhsil müəssisəsinə qəbul olunması, namizədin bakalavr və ya magistr ali təhsil dərəcəsinə malik olması, namizədin təhsil almaq istədiyi və ya təhsil aldığı xarici ali təhsil müəssisəsinin müəyyən edilən beynəlxalq reytinqlərin– "Times Higher Education (THE) World University Rankings" və "Academic Ranking of World Universities (Shanghai)" hər hansı birində cari təqvim ilindən əvvəlki təqvim ilinin nəticələrinə görə 500-cü yerdən aşağı olmayan sırada yer alması əsas şərtlərdəndir. Onu da qeyd edək ki, bu reytinq ixtisas üzrə deyil, universitet üçün ümumi reytinq hesab edilir.

Azərbaycan Respublikası ali təhsil müəssisəsinin namizədin xarici ali təhsil müəssisəsində təhsili başa çatdıqdan sonra pedaqoji fəaliyyətə cəlb edilməsi üçün onunla əmək müqaviləsi bağlamağa razılığı olmalıdır. Yəni dövlət hesabına doktorantura təhsili alan namizəd gələcəkdə mütləq Azərbaycan ali təhsil müəssisələrində çalışmalıdır. Təhsil almaq istədiyi ixtisas üzrə namizədin elmi tədqiqat işlərini aparmaq bacarıqları, namizədin məntiqi mühakimə yürütmək bacarıqları, namizədin kommunikasiya bacarıqları, özünəinam və inandırma qabiliyyəti əsas müsahibə meyarları hesab edilir.

### Namizədin meyarlara uyğunluğu müsahibə vasitəsilə qiymətləndiriləcək

Namizədin meyarlara uyğunluğu qaydada təqdim etdiyi sənədlər əsasında Təhsil Nazirliyinin nəzdində Dövlət Proqramının İdarəetmə Qrupu tərəfindən qiymətləndirilir. İdarəetmə Qrupunun yaradılması, fəaliyyətinin təşkili qaydası və səlahiyyətləri Nazirlər Kabineti tərəfindən müəyyən edilir. Namizədin meyarlara uyğunluğu aşkarlıq şəraitində şəffaf üsullarla keçirilən müsahibə vasitəsilə qiymətləndiriləcək.

Namizədlərlə müsahibələri Nazirlik tərəfindən yaradılan və ictimai əsaslarla fəaliyyət göstərən müsahibə komissiyaları aparacaq. Müsahibə komissiyalarının tərkibi 3 (üç) nəfərdən az olmamaqla Nazirliyin, Azərbaycan Respublikası Dövlət Neft Fondunun və namizədlərin ixtisas istiqamətlərinə uyğun sahədə dövlət siyasətini (tənzimləməni) həyata keçirən dövlət orqanlarının (qurumların) əməkdaşlarından formalaşdırılacaq.

Müsahibə komissiyalarının tərkibinə namizədlərin ixtisas istiqamətlərinə uyğun sahə üzrə fəlsəfə doktoru (elmlər namizədi) dərəcəsi olan mütəxəssislər cəlb edilə bilərlər. Müsahibə komissiyalarına üzv olan nazirliyin əməkdaşları həmin komissiyalara sədrlik edəcək.

### Proqram iştirakçılarının xərclərinə nələr daxildir?

Təhsil xərclərinə təhsil haqqı, xarici ali təhsil müəssisəsində qeydiyyat haqqı və proqram iştirakçısının təhsili ilə bağlı ödənilməsi xarici ali təhsil müəssisəsi tərəfindən tələb olunan xərclər aiddir.

Onu da qeyd edək ki, proqram iştirakçılarının ailə üzvlərinin və digər qohumlarının xərclərinin maliyyələşdirilməsi həyata keçirilməyəcək.

Viza və proqram iştirakçısının təhsil aldığı ölkədə qeydiyyat xərclərinə həmin ölkəyə vizanın rəsmiləşdirilməsinə görə tutulan rüsum, vizanın rəsmiləşdirilməsi ilə bağlı tibbi müayinə xərcləri və proqram iştirakçısının təhsil aldığı ölkədə qeydiyyata alınması üçün tutulan haqq aiddir.

Aylıq yaşayış xərclərinə proqram iştirakçısının yataqxana və ya mənzil kirayəsi, qidalanma və digər xərcləri aiddir. Proqram iştirakçısının aylıq yaşayış və tədris materialları ilə təminat xərclərinin məbləği və valyutası müvafiq Qaydaların əlavəsinə uyğun olaraq müəyyən edilir.

Tibbi sığorta xərclərinə gəldikdə isə, proqram iştirakçısının təhsil aldığı ölkədə təhsil müddətindən artıq olmayan müddətə tibbi sığortası üçün ödənilən sığorta haqqı aiddir.

Beynəlxalq nəqliyyat xərclərinə proqram iştirakçısının hər tədris ili üçün bir dəfə təhsil aldığı ölkəyə gedişi və Azərbaycan Respublikasına gəlişi üçün təyyarə ("ekonom-sinif" üzrə bir baqaj ödənilməklə) və ya beynəlxalq reyslər üzrə digər ictimai nəqliyyat vasitəsi biletinin qiyməti aiddir.

# 2020-ci ilin təhsil hədəfləri

⇦ Əvvəli səh.1

## Aparılan məqsədyönlü işlər öz müsbət bəhrələrini verməkdədir

Oruc MUSTAFAYEV




### Məktəb tikintisi davam etdiriləcək

Ceyhun Bayramov təhsil müəssisələrinin vəziyyəti, şagirdlərin təhsil mühiti, məktəblərin infrastrukturuna aid olan məsələlər barədə danışaraq qeyd edib ki, 2019-cu ildə Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş dövlət investisiya proqramları, bir çox hallarda sərəncamlara əsasən icra edilən işlərə uyğun olaraq Təhsil Nazirliyi qarşısında da müəyyən hədəflər qoyub. Həmin hədəflərə uyğun olaraq Nazirliyin sifarişi ilə ötən il 84 məktəb binası tikilib və ya əsaslı təmir edilib. “Maddi-texniki baza və infrastruktur barədə danışanda, xüsusi olaraq qeyd edilməlidir ki, bu istiqamət hər zaman Heydər Əliyev Fondunun və Fondun rəhbəri, ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın diqqət mərkəzindədir. 2019-cu ildə onlarca yeni məktəb binası Fond tərəfindən inşa edildi, müəllim və şagirdlərin istifadəsinə verildi. Beləliklə, 2019-cu ildə 100-dən artıq yeni məktəb binası istifadəyə verildi. Diqqət yetirdikdə bu istiqamətdə olduqca artıq böyük işlərin yekunlaşmasının şahidiyik. Eyni zamanda qeyd etmək istərdim ki, bu sahədə hələ görüləsi xeyli işlər var”.

Təhsil naziri bildirib ki, ölkə başçısı tərəfindən təsdiq edilmiş bir sıra - həm Regionların sosial-iqtisadi inkişafına dair 2019-2023-cü illəri əhatə edən Dövlət Proqramında, eyni zamanda Bakı və ətraf qəsəbələrin inkişafına dair Dövlət Proqramında növbəti illər üçün xeyli sayda yeni məktəb binalarının tikintisi və əsaslı təmiri nəzərdə tutulub ki, həmin proqramlara uyğun olaraq 2020-ci ildə də bu istiqamətdə işlər davam etdiriləcək. “2020 və növbəti illərdə Təhsil Nazirliyi olaraq biz onu qeyd edə bilərik ki, hədəflənən rəqəmlər ondan ibarətdir ki, 2020-ci ildə görülən işlər ən azından 2019-cu ildəki həcmdə və yaxud ondan artıq həcmdə olsun”.

### Şagird sıxlığı aradan qaldırılacaq

Ceyhun Bayramov valideynlərlə görüşlər zamanı tez-tez qaldırılan məsələlərdən birinin məktəblərdə yüksək şagird sıxlığı ilə bağlı olduğunu deyib. Nazir bu barədə danışarkən ilk olaraq ümumi mənzərə haqqında məlumat vermək istədiyini bildirib. “Ümumi mənzərə ondan ibarətdir ki, ölkəmizdə 4500-ə yaxın məktəb var və məktəblərin təxminən 50 faizində şagirdlərin sayı 200 və ya 200-dən aşağıdır. Eyni zamanda ölkəmizdə çox müsbət demoqrafik artım var, orta hesabla əhalinin sayı ildə 100 min, ümumtəhsil sistemində şagirdlərin sayı isə orta hesabla 50 faiz artır. Eyni zamanda əhali artımı ölkənin bütün ərazisində eyni templərlə baş vermir. Bəzi yaşayış məntəqələrində bu artım daha sürətlə gedir, daxili miqrasiya məsələləri də mövcuddur. Bütün bu proseslərin nəticəsidir ki, bizim bir sıra yaşayış məntəqələrimizdə kifayət qədər yüksək şagird sıxlığı mövcuddur”.

Ceyhun Bayramov qeyd edib ki, bu məsələ hər zaman bizim diqqət mərkəzimizdədir. “Əlavə olaraq onu deyə bilərəm ki, bu istiqamətdə işlərin sürətləndirilməsi ilə bağlı cənab Prezidentin xüsusi tapşırığı olmuşdur. Bu məsələlərin həllini təmin etmək üçün bir sıra dövlət qurumlarının birgə çalışması və əməkdaşlığının həyata keçirilməsi lazımdır. Bu, yalnız Təhsil Nazirliyi tərəfindən görülmür, bir sıra digər dövlət qurumları da bu prosesə sıx cəlb olunublar və bütün bu koordinasiya işlərinin və bu tapşırıqların icrasını təmin etmək məqsədilə ölkənin Baş naziri tərəfindən bütün aidiyyəti dövlət qurumlarının rəhbərlərinin iştirakı ilə 2019-cu ildə bir neçə dəfə iclaslar keçirilib və bu məsələlər müzakirə olunub”.

Nazir dövlət başçısının tapşırığı ilə bu sahədə intensiv işlərin aparıldığı yaşayış məntəqələrinin adlarını sadalayıb. Bunlar Bakı şəhəri, Xəzər rayonu Binə qəsəbəsi, Binəqədi rayonu kənd Binəqədi ərazisi və Sulutəpə yaşayış massivi, Abşeron rayonu Xırdalan şəhəri, Masazır və Saray yaşayış məntəqələridir. Bütün bu yaşayış məntəqələri ilə bağlı tapşırıqlar icra olunmaqdadır. 2020-ci ildə bu sahədə müvafiq işlər həyata keçiriləcək və eyni zamanda, artıq ötən ildən başlanmış bəzi işlərin də gələn il yekunlaşması planlaşdırılır. Yeni tədris ilinin əvvəlinə kimi həmin məktəblərin istifadəyə verilməsi nəzərdə tutulub. Abşeron rayonu Binə qəsəbəsində yeni 1760, 1600 şagird yerlik Binə qəsəbə məktəblərinin də sentyabr ayında istifadəyə verilməsi nəzərdə tutulub. Eyni zamanda Xırdalan şəhərində 3 nömrəli məktəbin ərazisində 1400 şagird yerlik yeni məktəb korpusunun tikintisinin 2020-ci ilin sentyabr ayına kimi başa çatdırılması nəzərdə tutulub. Dövlət başçısının sərəncamına müvafiq olaraq Sumqayıt şəhəri 1 nömrəli məktəbin tamamilə yenidən qurulması və yenidən tikintisi ilə bağlı işlər 2020-ci ilin birinci rübündə artıq yekunlaşacaq və inşa edilmiş məktəb şagirdlərin istifadəsinə veriləcək.

### Məktəbli avtobusu

Ceyhun Bayramov qeyd edib ki, Təhsil Nazirliyi olaraq biz mütəmadi şəkildə valideynlərlə görüşlər keçiririk.Görüşlərdə bir neçə dəfə valideynlər tərəfindən məktəblərin nəqliyyat vasitələri sisteminin qurulması ilə bağlı müraciətlər olub. “Mən onu qeyd edə bilərəm ki, biz bu istiqamətdə də artıq ötən ildən Bakı Nəqliyyat Agentliyi ilə sıx əməkdaşlığa başlamışıq. Bakı Nəqliyyat Agentliyinin böyük işçi qrupu ilə bu istiqamətdə işlər həyata keçirilir və bizim mütəxəssislər onlarla birgə işləyir. Hesab edirəm ki, bu istiqamətdə xeyli irəliləyə bilmişik və bu işlər daha da davam etdiriləcək. Düşünürəm ki, birgə səylərimiz nəticəsində 2020-ci ildə yeni tədris ilinin başlanmasına qədər Bakı şəhərində sıx ərazilərdə şagird sayı çox olan bir sıra məktəblər üçün avtobus sisteminin təşkil edilməsinə nail olacağıq. Təbii ki, bu, ilkin mərhələdə bütün məktəbləri əhatə etməyəcək. Hesab edirik ki, bu, çox faydalı və uğurlu bir başlanğıc ola bilər. Layihənin gedişindən asılı olaraq onun gələcək inkişaf sürəti barədə daha dəqiq məlumatlar vermək mümkün olacaq”.

### Dərsliklər - daha asan, daha yüngül

Ceyhun Bayramov ictimaiyyəti maraqlandıran məsələlərdən birinin də dərsliklərlə bağlı olduğunu diqqətə çatdırıb. Bu sahədə ötən il ərzində görülmüş işlər və 2020-ci ildə nəzərdə tutulmuş tədbirlər barədə məlumat verən nazir qeyd edib ki, mövcud olan dərsliklərin yeni formatda təqdim edilməsi istiqamətində artıq bir neçə ildir ki, işlər aparılır. “Ancaq eyni zamanda biz müşahidə edirik ki, həmin dərsliklərin əlavə materiallarla zənginləşdirilməsi, səsli materialların daxil edilməsi, xüsusi tapşırıqların, təcrübələrlə bağlı olan videogörüntülərin oraya daxil edilməsi həmin dərsliklərdən istifadə əmsalını xeyli artırır. Qeyd etmək istəyirəm ki, 2019-cu ildə mövcud 256 elektron dərsliyimizi xeyli sayda əlavə materiallarla zənginləşdirmişik və bunun nəticəsi olaraq ötən ildə ümumilikdə dərsliklərə baxış sayı təxminən 21 milyondan artıq olub. Və burada biz çox müsbət dinamika görürük”. Təhsil naziri vurğulayıb ki, bu istiqamətdə işlər, eləcə də son 2 ildə başlanılmış layihələr 2020-ci ildə də davam etdiriləcək.

Ceyhun Bayramov yeni formatda hazırlanan dərsliklər məsələsinə də toxunub. “Biz bunları şərti olaraq ehtiyat dərsliklər modelinə keçən dərsliklər adlandırırıq. Ümumilikdə bu yanaşmanın fəlsəfəsi ondan ibarətdir ki, söhbət xüsusu olaraq yeni yanaşmalardan istifadə edilməklə hazırlanmış və ən azı bir il ərzində ölkənin 100 məktəbində istifadə edilən və özünü doğruldan dərsliklərin artıq ölkə ərazisində geniş istifadəsindən gedir. Bir sıra dərsliklərimizin istifadəsinə ilkin olaraq ibtidai siniflərdən başladıq. Bəzi dərsliklər 1 il, bəzi dərsliklər 2 il sınaqdan keçdi, bu müddət ərzində kitablarla bağlı həm müəllimlər, həm şagirdlərdən daxil olan rəylər nəzərə alınıb və həmin dərsliklər təkmilləşdirilib”.

Təhsil naziri qeyd edib ki, 2020-ci ilin sentyabrından Azərbaycan dili, riyaziyyat, xarici mütəxəssislər tərəfindən hazırlanmış və Azərbaycan üçün adaptasiya edilmiş ingilis dili dərsliklərinin ilk dəfə olaraq məktəblərdə tətbiqi nəzərdə tutulur. “Biz digər bir məsələni də diqqətdə saxladıq. Bu da ondan ibarətdir ki, yeni modellə hazırlanmış dərsliklər birinci siniflər üçündür. Onlar iki hissədən ibarət, daha yüngül, daha asan daşına bilən olacaq”.

Dərslik və məzmun barədə danışanda bir məsələ də qeyd olunmalıdır ki, zaman-zaman qaldırılan məsələlər, suallar tədris proqramları, onların yükü, məktəbdaxili qiymətləndirmə, onların sayı ilə bağlı olan məsələlərdir ki, bu istiqamətdə də nazirlik 2019-cu ildə bir sıra addımlar atıb. Bu işlərin davamı gələn ildə davam etdiriləcək.

Təhsil naziri həmin addımlardan danışarkən qısa olaraq əsas təşəbbüslər və dəyişikliklər barədə məlumat verib. Bildirilib ki, ötən il məktəbdaxili qiymətləndirmələrin sayı 288-dən 188-ə qədər, orta hesabla təxminən 40 faiz azaldılıb, təbii ki, bu azalma edilən zaman mütəxəssislər rəylər veriblər. “Məqsədimiz ondan ibarətdir ki, hər hansı dəyişiklik edildikdə onların şagirdlərin nailiyyətlərinə mənfi təsiri olmasın. Azərbaycanda və eləcə də bütün dünyada qəbul olunmuş beynəlxalq təcrübə ondan ibarətdir ki, təhsilin məzmunu daim yenilənir, daim təkmilləşdirilir”. Nazir qeyd edib ki, ötən il standartların ilkin ictimai müzakirəsi keçirilib və irəli sürülmüş dəyərli təkliflər nəzərə alınıb və nəticədə standartlar ikinci dəfə ictimai rəyə təklif edilib. “Artıq ikinci mərhələdən keçən standartlar üzrə yekun işlər aparılır və düşünürəm ki, 2020-ci ildə təkmilləşdirilmiş standartlar tətbiq ediləcək. Onlara uyğun olaraq biz bir sıra təkmilləşdirilmiş resurslarda onları nəzərə ala biləcəyik. Standartlar hazırlanarkən diqqət mərkəzində saxlanılan əsas məqamlar - beynəlxalq qiymətləndirmələrdə istifadə edilən ölçmə meyarları, eləcə də Nazirlik tərəfindən həyata keçirilən yeni layihə və təşəbbüslər, - “Rəqəmsal bacarıqlar”, STEAM layihəsinin tətbiqi ilə bağlı əldə olunan nəticələr, müsbət təcrübə, məlumat bazası da məzmun təkmilləşdirilən zaman mütəxəssislərimiz tərəfindən nəzərə alınır. Bizim əsas məqsədimiz proqramın müasir və səriştə əsaslı məzmunun təqdim olunmasından ibarət olmasıdır”.

### Təmayül siniflərin şəbəkəsi genişləndirilir

Məzmun istiqamətində atılan addımlardan danışanda nazir 2019-cu ildən ümumtəhsil müəssisələrinin X və XI siniflərini əhatə edən təmayülləşmənin əhatə dairəsinin genişlənməsi və əhəmiyyətinə toxunub. C.Bayramov təmayülləşməyə cəlb olunmuş şagirdlərin sayının 47 minə çatdığını bildirib. O vurğulayıb ki, ötən il təmayülləşməyə cəlb edilmiş şagirdlərin nəticələrini təhlil edərkən görürük ki, təmayül siniflərində oxuyan şagirdlərin nəticələri qeyri-təmayül siniflərin şagirdlərinkindən müsbət mənada fərqlənir, ona görə də biz həm təmayül siniflərin şəbəkəsini genişləndiririk, eyni zamanda burada da məzmunun ötən ilin təcrübələri nəzərə alınmaqla təkmilləşdirilməsi istiqamətində 2020-ci ildə işlərimizi davam etdirəcəyik.

### Tarixi uğur

Təhsil naziri yeni məzmun və təhsil sisteminin nailiyyətlərindən biri kimi istedadlı uşaqlarla aparılan işləri yüksək qiymətləndirib. Təhsil Nazirliyi il ərzində bu sahədə ictimaiyyətə geniş məlumatlar verir. “Bizim üçün əsas istiqamətlərdən biri odur ki, istedadlı şagirdlərin aşkar edilməsi, onların istedadlarının inkişaf etdirilməsi və şagirdlərimizin beynəlxalq səviyyədə digər ölkələrin ən hazırlıqlı şagirdləri ilə rəqabət aparması istənilən təhsil sistemi üçün olduqca müsbət göstəricidir. Çünki bu, bir tərəfdən, digər şagirdləri motivasiya edirsə, digər tərəfdən onun göstəricisidir ki, Azərbaycan təhsil sistemi bu gün dünyanın ən aparıcı təhsil sistemləri və ən yaxşı məktəbləri ilə rəqabət apara biləcək məzun yetişdirə bilir, yoxsa yox”.

C.Bayramov qeyd edib ki, Azərbaycan təhsil sistemi, Azərbaycan məktəbinin yetişdirdiyi istedadlı şagirdlərimizin beynəlxalq səviyyədə nəticələri ilbəil artır, 2018-2019-cu tədris ilində şagirdlərimiz müxtəlif nüfuzlu beynəlxalq olimpiadalarda 40 medal qazanıblar. Azərbaycan 5 fənn üzrə əsas dünya olimpiadalarında iştirak edib və 5 fəndən 4-ü üzrə şagirdlərimiz vətənə medalla qayıdıblar. Artıq 2019-2020-ci tədris ilinin olimpiada tsiklinə start verilib. Sevindirici haldır ki, şagirdlərimiz bu ilin iki elm olimpiadasında - Yeniyetmələrin Beynəlxalq Elm və Beynəlxalq Jautikov olimpiadalarında tarixi uğur əldə ediblər. Beynəlxalq Elm Olimpiadasında 4 gümüş, iki bürünc, Jautikov Olimpiadasında isə 1 qızıl, 3 gümüş, 4 bürünc medal qazanıblar. Bu il ilk dəfə olaraq informatika üzrə qızıl medal əldə olunub.

Təhsil naziri qeyd edib ki, bu sahədə şagird və gənclərimizi daha çox motivasiya etmək məqsədilə qanunvericiliyə müvafiq dəyişiklik edilib və onlar ali məktəblərə qəbulda əlavə imtiyazlar əldə ediblər. Müxtəlif sahələr - həm elm, həm də yaradıcılıq sahələri üzrə çox istedadlı şagirdlərimizdən 100 nəfər imtiyazlardan istifadə edərək məhz bu nəticələr əsasında ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunub. “Hesab edirəm ki, bu sahədə digər addımlar bu il, növbəti illərdə şagirdlərimizin nəticələrini daha da yaxşılaşdıracaq və müsbət tendensiya davam edəcək”.

### Təqaüd alan tələbələrin sayı 50 faizə çatdırılacaq

Təhsil naziri ali təhsil sahəsində əldə olunmuş müsbət dəyişikliklərdən bəhs edib. Qeyd olunub ki, 2019-cu il ali təhsil sahəsində bir çox yeniliklərlə yadda qalıb. Ali təhsilin əlçatanlığının artırılması, tələbələrin sosial müdafiəsinin yaxşılaşdırılması sahəsində ölkə Prezidenti tərəfindən əhəmiyyətli qərarlar qəbul olunub. 2019-cu ildə dövlət hesabına təhsil alan tələbələrin sayı 2018-ci illə müqayisədə bir il ərzində 66 faiz artıb. Belə ki, 2018-ci ildə 12300 nəfər dövlət hesabına ali təhsil müəssisələrinə qəbul olunubsa, 2019-cu ildə bu rəqəm 20500-ə çatdırılıb. Ceyhun Bayramov diqqətə çatdırıb ki, təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı ölkə başçısının müvafiq sərəncamına əsasən,dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayı artırılıb. Tələbə təqüdü alanların sayı 110 mini əhatə edir, hər iki tələbədən birinin dövlət hesabına təhsil alması göstəricisinə, demək olar ki, çox yaxınıq. İcra olunan böyük sosial paket əsasında ötən ilin martından əlavə 16 min tələbə təqaüd almaq imkanı qazanıb. 2020-2021-ci tədris ilində isə təqaüd alan tələbələrin sayının 50 faizə çatdırılması konkret hədəf kimi qoyulub.

### Tələbə yataqxanaları

Ceyhun Bayramov ali təhsil müəssisələrimizin tələbələrimizə daha yaxşı təhsil şəraitinin təmin edilməsi, eyni zamanda hər bir universitet üçün əcnəbi tələbələrin cəlb edilməsi imkanlarının genişləndirilməsində vacib olan məqamlardan biri kimi tələbə yataqxanalarının tikintisi istiqamətində aparılan işlər barədə məlumat verib. Qeyd olunub ki, 2019-cu ildə bu sahədə bir sıra çox vacib layihələr icra olunub, onlardan bəzilərinə start verilib. Bakı şəhərində ADNSU-nun tələbə yataqxana korpusunun bazasında 700 nəfərlik yataqxananın istifadəyə verilməsi layihəsi icra olunub. Onun xüsusiyyəti ondadır ki, yataqxananın tikintisi özəl sektorun nümayəndələrinin iştirakı ilə təmin edilib, dövlət vəsaiti sərf edilməyib. Eyni zamanda ötən il Lənkəran Dövlət Universitetinin 156 nəfərlik yeni tikilmiş müasir tələbə yataqxana kompleksi istifadəyə verilib. Gəncə Dövlət Universitetinin 800 yerlik 3 binadan ibarət yataqxana kompleksinin əsas təmir işləri yekunlaşmaq üzrədir, növbəti aylarda istifadəyə veriləcək. Eyni zamanda Sumqayıt Dövlət Universiteti üçün 250 nəfərlik yataqxana binasının əsaslı təmir edilərək tələbələrin istifadəsinə verilməsinə start veriləcək. Bakı Dövlət Universitetinin 220 tələbə yerlik yataqxanasının əsaslı təmiri işləri yekunlaşmaq üzrədir və yaxın zamanlarda tələbələrin istifadəsinə veriləcək.

Təhsil naziri eyni zamanda Asiya İnkişaf Bankı ilə yeni tələbə yataqxanalarının daha sürətlə inşa edilməsi prosesinin stimullaşdırılması üçün icra olunan birgə layihə barədə məlumat verib. Qeyd olunub ki, Asiya İnkişaf Bankı Təhsil Nazirliyi ilə məsləhətçi mütəxəssislər cəlb edilməklə bu istiqamətdə xüsusi bir layihə hazırlayıb. Əsas məqsəd ondan ibarətdir ki, elə bir şərtlər işlənib təqdim edilsin ki, burada özəl sektorun iştirakı ilə böyük dövlət sərmayələrinə ehtiyac olmadan yeni yataqxana binaları tikilsin və tələbələrin istifadəsinə verilsin. “İlkin olaraq bu layihə ADNSU və BDU üçün olan əraziləri əhatə edir. Hesab edirik ki, bu layihələrin uğurlu icrası digər bu istiqamətdə olan yeni yataqxanaların tikintisini də sürətləndirə bilər”.

Təhsil naziri mətbuat konfransında jurnalistləri maraqlandıran çoxsaylı sualları da cavablandırıb.

# Portala daxil ol, təhsil aldığın universiteti dəyiş

## Tələbələrin köçürülməsi prosesinə başlanılır

Niyazi RƏHİMOV

Son illər Təhsil Nazirliyinin həyata keçirdiyi ən mühüm islahatlardan biri də tələbələrin ölkə daxilində və xaricdə yerləşən ali təhsil müəssisələrindən digərinə köçürülməsi, bir ixtisasdan digərinə dəyişdirilməsinin elektron qaydada təşkilidir. Hər il olduğu kimi, bu il də proses il ərzində iki dəfə- tələbələrin qış və yay tətili dövründə həyata keçiriləcək. Diqqətə çatdıraq ki, bu il fevral ayının 1-dən tələbələrin köçürülməsi prosesinə start veriləcək. Elektron sənəd qəbulu fevralın 7-dək davam edəcək.

### 6 minə yaxın tələbənin köçürülməsi həyata keçirilib

Qeyd edək ki, tələbələrin ölkə daxilində və xaricdə yerləşən ali təhsil müəssisələrindən digərinə köçürülməsi, tələbələrin bir ixtisasdan digərinə dəyişdirilməsi, eləcə də ölkəmizdə yerləşən orta ixtisas təhsili müəssisələri tələbələrinin, magistratura səviyyəsində təhsilalanların köçürülməsi 2016-cı ildən *transfer.edu.az* portalı vasitəsi ilə həyata keçirilir. Portalın yaradılmasında məqsəd tələbələrin köçürülməsi prosesinin sadələşdirilməsi və şəffaflığın təmin olunmasından ibarətdir. Portala müraciət edən şəxslər köçürülmək istədiyi təhsil müəssisəsini seçmək imkanına malikdir. Bunun üçün təhsilalanlar tələb olunan məlumatları daxil etməklə, köçürülmə meyarlarına uyğun gəlib-gəlmədiyini müəyyən edə bilərlər.

Portal fəaliyyətə başladığı gündən bugünədək 6 minə yaxın tələbənin köçürülməsi həyata keçirilib.

### Tələbənin köçürülmək istədiyi ixtisaslar DİM tərəfindən müəyyən olunmuş eyni ixtisas qrupu daxilində olmalıdır

Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanlarında tələbənin topladığı bal qəbul olunduğu ildə köçürülmək istədiyi ali təhsil müəssisəsində müvafiq ixtisas üzrə minimal keçid balından az olmamalıdır. Həmçinin tələbənin qəbul olunduğu və köçürülmək istədiyi ixtisaslar Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən olunmuş eyni ixtisas qrupu daxilində olmalıdır.

### Xarici ölkələrin akkreditə olunmayan universitetlərinin tələbələrinin köçürülməsinə icazə verilmir

Qaydalara əsasən, xarici ölkələrin akkreditə olunmayan ali təhsil müəssisələri tələbələrinin və digər ölkələrdə qiyabi təhsil alanların köçürülməsinə icazə verilmir. DİM tərəfindən keçirilən qəbul imtahanlarında iştirak etdikləri halda əyani formada təhsil alan Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkə ali təhsil müəssisələrindən ölkənin ali təhsil müəssisələrinə köçürülməsi ümumi qaydada aparılır. Yəni, əvvəlki qaydada. DİM tərəfindən keçirilən imtahanlarda iştirak etmədikləri halda isə beynəlxalq səviyyəli imtahanlarda qazandıqları nəticələr, məsələn, SAT, TOEFL və ya İELTS imtahanlarındakı nəticələrə əsasən, qənaətbəxş akademik göstəricilər, köçürülmə səbəbləri, təhsil aldıqları ali təhsil müəssisələrinin dünyanın ən yaxşı ali məktəblərinin qlobal reytinqində yer alması məsələləri nəzərə alınır. Bununla yanaşı, tələbənin təhsil aldığı ali təhsil müəssisəsinin dünyanın ən yaxşı ali təhsil müəssisələrinin reytinq siyahısında olması da nəzərə alınan göstəricilər sırasındadır. Bir ali təhsil müəssisəsindən digərinə köçürülən, ixtisasını dəyişən və tələbələr sırasına bərpa olunan şəxslər (dövlət sifarişi əsasında təhsil alanların eyni ixtisas üzrə köçürülməsi istisna olmaqla) təhsillərini yalnız ödənişli əsaslarla davam etdirirlər.

### Bakalavriat səviyyəsində eyni ixtisas üzrə ölkədaxili köçürülmədə DİM imtahanlarının balı nəzərə alınmır

Bakıda yerləşən dövlət ali təhsil müəssisələrindən ölkənin regionlarında yerləşən ali təhsil müəssisələrinə (Sumqayıt istisna olmaqla), öz ixtisası üzrə ölkənin bir regionunda yerləşən ali təhsil müəssisəsindən digər regionda yerləşən (Bakı və Sumqayıt istisna olmaqla) təhsil müəssisələrinə bakalavriat səviyyəsində tələbənin köçürülməsi Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanlarında topladığı bal nəzərə alınmadan aparılır. Burada hüquqşünaslıq və baza ali tibb ixtisasları istisnalıq təşkil edir. Magistratura səviyyəsində isə hüquqşünaslıq ixtisası istisna olmaqla Bakıda yerləşən dövlət ali təhsil müəssisələrindən öz ixtisası üzrə ölkənin regionlarında yerləşən ali təhsil müəssisələrinə tələbələrin köçürülməsi DİM tərəfindən keçirilən qəbul imtahanlarında topladığı bal nəzərə alınmadan aparılır.

# Təhsil naziri Salyan məktəbində olub




Təhsil naziri Ceyhun Bayramov Salyan şəhər 2 nömrəli tam orta məktəbdə olub. Nazir məktəbin müəllim və şagird kollektivi ilə görüşüb, eyni zamanda təhsil ocağının ümumi şəraiti, dərs otaqları, idman zalı və yeməkxanası ilə tanış olub.

Təhsil naziri şagirdlərin dərsə davamiyyəti ilə maraqlanıb, həmçinin təhsil ocağında aşkar olunan bir sıra nöqsanlarla bağlı tapşırıqlarını verib.

# Nazir müavini Biləsuvarda vətəndaşları qəbul edib

Yanvarın 24-də Təhsil nazirinin müavini Firudin Qurbanov Biləsuvar şəhərindəki Heydər Əliyev Mərkəzində Neftçala və Biləsuvar rayon sakinlərini qəbul edib.

Qəbuldan əvvəl Təhsil nazirinin müavini Firudin Qurbanov və Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyev ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər.

Qəbulda sözügedən bölgələrdə müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Nazir müavini vətəndaşların müraciət, şikayət və təkliflərini dinləyərək hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli ilə bağlı tapşırıqlar verib.

Qəbulda vətəndaşlar əsasən işlə təmin olunma, müəllimlərin yerdəyişməsi, dərs saatlarının artırılması, həmçinin digər məsələlərlə bağlı müraciət ediblər.

# Gənc müəllimlərlə görüş




Yanvarın 24-də Təhsil nazirinin müavini Firudin Qurbanov Biləsuvar şəhərindəki Heydər Əliyev Mərkəzində gənc müəllimlərlə görüşüb.

Görüşdə Biləsuvar və Neftçala rayon ümumtəhsil məktəblərinin gənc müəllimləri iştirak ediblər.

Təhsil nazirinin müavini Firudin Qurbanov müasir dövrdə müəllimdən tələb olunan keyfiyyətlər haqqında geniş çıxış edib. Nazir müavini müəllim və şagird arasında səmimi ünsiyyətin yaradılması, müasir texnologiya və tədris metodlarından istifadə imkanlarının vacibliyini vurğulayıb.

Nazir müavini Firudin Qurbanov çıxışında təhsil sahəsində əldə edilən nailiyyətlərdən və görülən işlərdən də ətraflı söz açıb.

Nazir müavini çıxışının sonunda müəllimlərin hər birinə pedaqoji fəaliyyətlərində uğurlar arzulayıb.

Görüş gənc müəllimlərlə qarşılıqlı fikir mübadiləsi şəraitində davam etdirilib.

Sonda xatirə şəkili çəkdirilib.




# Gəlin "Bir" olaq!

## Könüllülər qarşısına böyük hədəflər qoyub

⇦ Əvvəli səh.1

Ruhiyyə DAŞSALAHLI

Qran Pri yarışlarında nəinki tədbirin təşkilində və idarə olunmasında, hətta fləşmobda belə fəal iştirak etdilər".

Bu il də paralimpiyaçılar üçün önəmlidir. İ.Rəhimov VII Paralimpiya oyunlarının bu il keçiriləcəyini və Azərbaycan paralimpiyaçılarının lisenziya yarışlarının davam edəcəyini xatırladaraq həmin tədbirlərdə "Bir" tələbə-könüllülərinin dəstəyinə güvəndiklərini qeyd edib: "Tokioda keçiriləcək paralimpiya yarışlarına 30 iştirakçı lisenziya hüququ qazanacaq. Paralimpiya sahəsində rekord sayda iştirakçıdan söhbət gedir. Bu yarışlarda da "Bir" könüllü yanımızda olacaq".

Paralimpiya Komitəsinin ilk dəfə "Bir" tələbə-könüllülərlə əməkdaşlığa başladığını vurğulayan İ.Rəhimov yenicə imzalanan memorandumun artıq çoxdan başlamış bu münasibətlərdə formal xarakter daşıdığını da qeyd edib: "Əməkdaşlıq bizim beynimizdədir. Memorandum isə indiyədək mövcud olan və bundan sonra da davam edəcək birgə fəaliyyətin, sadəcə kağız üzərində təsdiqidir".

### İnklüziv könüllülük

"Bir" Tələbə-Könüllü Proqramının rəhbəri Canoğlan İlyasov da AMPK ilə əməkdaşlığa önəm verdiyini deyib. Könüllülüyün əhəmiyyətindən, gənclərə və dövlətə qazandırdıqlarından danışaraq bildirib ki, Milli Paralimpiya Komitəsi ilə imzalanan memorandum həm könüllülərə həsr olunan 2020-ci ildə, həm də ondan sonra əlilliyi olan şəxslərin könüllülük fəaliyyətinə cəlb olunmasında müstəsna rol oynayacaq. Tələbə-könüllülərin beynəlxalq oyunların təşkilinə cəlb olunmasının könüllülük hərəkatına verdiyi töhfələrdən sonra əlilliyi olan şəxslərin könüllülərin sıralarına cəlb olunması da könüllülük fəaliyyətində yeni istiqamət təşkil edəcək. Proqramın bu il daha çox üstünlük verəcəyi inklüziv könüllülük istiqaməti "Könüllülər ili"nə töhfə qatacaq: "Milli Paralimpiya Komitəsində atılan imza bu istiqamətdə əməkdaşlığın daha geniş miqyasda və yüksək keyfiyyətdə aparılacağını göstərir. Memorandumla gəncləri könüllü fəaliyyətinə təşviq etməyi, idmana və xüsusilə paralimpiya yarışlarına marağı artırmaq üçün əlimizdən gələni etməyi, gənclərə asudə vaxtlarından səmərəli istifadə etmək üçün əlverişli mühit yaratmağı öz üzərimizə götürdük. Tədbirlərin həyata keçirilməsində tələbə-könüllülərin iştirakını təmin etmək, tərəflər arasında əməkdaşlıq istiqamətlərini müəyyənləşdirmək, həmçinin, inklüziv könüllülüyün inkişafına şərait yaratmaq əsas məqsədimiz olacaq".

C.İlyasov "Bir" könüllünün qarşısında duran hədəflərdən də danışıb: ""Bir" tələbə-könüllü proqramı ölkəmizdə keçirilən beynəlxalq və dövlət əhəmiyyətli tədbirlərə dəstək olur. Bu il "Könüllülər ili" elan olunması könüllülər, könüllülük hərəkatı üçün qürurverici hadisə olmaqla yanaşı, bundan sonrakı fəaliyyətimiz üçün də məsuliyyət deməkdir. Odur ki, "Bir" könüllü bu il üçün qarşısına böyük hədəflər qoyub. İnklüzivlik, könüllü müəllim, peşə məktəblərinin könüllülük fəaliyyətinə cəlb edilməsi istiqamətlərində bir sıra layihə və tədbirlər nəzərdə tutulub".

Könüllülərin hədəfləri çox böyükdür. Növbəti illərdə başqa millətlərdən olanların da Azərbaycanda könüllülük fəaliyyətinə qoşulacağına ümidləri sonsuzdur. Elə sıraları da ümidləri qədər sonsuz olan Azərbaycan könüllülərindən "BİR"i olmaq üçün tələbələrin *www.konullu.edu.az* saytından qeydiyyatdan keçməsi kifayətdir.

## "SABAHın müəllimi" təcrübə proqramının açılışı olub

SABAH qrupları layihəsinin "SABAHın müəllimi" təcrübə proqramının açılış mərasimi keçirilib.

Tədbirdə Təhsil nazirinin müavini Firudin Qurbanov, SABAH qrupları İcra Komitəsinin rəhbəri Şahin Seyidzadə, "Sağlam təhsil — sağlam millət" və "STEAM Azerbaijan" layihəsinin əməkdaşları, həmçinin ümumtəhsil məktəblərinin müəllimləri, SABAH Mərkəz rəhbərləri və tələbələri iştirak ediblər.

Tədbirdə bildirilib ki, 2019-2020-ci tədris ilindən start verilən "SABAHın müəllimi" təcrübə proqramı SABAH qruplarının pedaqoji ixtisasları üzrə təhsil alan III kurs tələbələri üçün nəzərdə tutulub. Üç istiqamət üzrə ("STEAM" siniflərində, kənd məktəblərində, "Sağlam təhsil" siniflərində) aparılacaq təcrübə proqramı ümumilikdə 126 tələbə və 56 məktəbi əhatə edəcək.

Məlumat verilib ki, "STEAM" siniflərində təcrübə proqramı SABAH qruplarının "STEAM Azerbaijan" layihəsi ilə əməkdaşlığı çərçivəsində SABAH tələbələrinin layihə haqqında məlumatlılığının artırılması məqsədilə 2 həftəlik intensiv təlimlərdə iştirak etməsini və STEAM siniflərində pedaqoji təcrübə keçməsini nəzərdə tutur. Təcrübədə ümumilikdə 6 ixtisas üzrə 68 tələbə iştirak edəcək. Təcrübə 15 ümumtəhsil məktəbini əhatə edəcək.

Kənd məktəblərində təcrübə proqramı çərçivəsində isə 33 tələbə ucqar kəndlərdə yerləşən ümumtəhsil məktəblərində təcrübə keçəcək. Təcrübə 27 kənd üzrə 32 məktəbi əhatə edəcək. Təcrübənin əsas məqsədi tələbələrin SABAH qruplarında təhsil dövründə qazandıqları bilik və bacarıqlarını, təcrübələrini yaşadıqları icmaya ötürərək töhfə vermələridir.

Təcrübə proqramının 3-cü istiqamətinə uyğun olaraq tələbələrin digər qismi "Sağlam təhsil - sağlam millət" layihəsi ilə əməkdaşlıq çərçivəsində "Sağlam təhsil" siniflərində təcrübəyə cəlb olunacaqlar. Bildirək ki, 2016-cı ildən etibarən 100 SABAH tələbəsi "Sağlam təhsil" siniflərində təcrübə keçib.

Qeyd edək ki, "SABAHın müəllimi" təcrübə proqramının əsas məqsədi pedaqoji ixtisaslar üzrə təhsil alan SABAH tələbələrinə öyrəndikləri nəzəri biliklərin tətbiqi yolu ilə ixtisaslarını dərindən mənimsəmələri və peşəkar müəllim kimi inkişaf etmələrinə şərait yaratmaqdır.

# Azərbaycanda "Abay ili"

## Türk dünyası qazax şairinin 175 illik yubileyini qeyd edir

**Ruhiyyə DAŞSALAHLI**



2020-ci il türk dünyasında "Abay Kunanbayev ili"dir. Müasir qazax yazılı ədəbiyyatının banisi, filosof, böyük ictimai xadim və maarifçi Abay Kunanbayevin 175 illik yubileyi Azərbaycanda da təntənəli şəkildə qeyd ediləcək. "Abay Kunanbayev ili"nin ilk tədbiri Bakı Dövlət Universitetində (BDU) baş tutub. Beynəlxalq Türk Akademiyası (BTA), Təhsil Nazirliyi, Bakı Dövlət Universiteti, L.Qumilyov adına Avrasiya Milli Universiteti, Qazaxıstanın Azərbaycandakı Səfirliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə qonaqlar BDU nəzdində fəaliyyət göstərən Abay Kunanbayev adına Qazax dili, tarixi və mədəniyyəti mərkəzini ziyarət edib, burada təşkil edilən kitab sərgisi ilə tanış olublar.

BDU-nun rektoru Elçin Babayev Abay Kunanbayevin qazax və türk dünyası ədəbiyyatındakı rolunu qeyd edib. Şairin dünyagörüşünün formalaşmasında Şərq alim və şairləri qədər Qərb mütəfəkkirlərinin də rolu olduğunu deyib. BDU-da "Abay" kitabının təqdimat mərasimi, Qazax xanlığının yaranmasının 550 illiyi və Abay Kunanbayevin 170 illik yubileyi münasibətilə beynəlxalq konfrans keçirildiyini vurğulayıb.

Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva bildirib ki, təhsil və elm sahəsində əməkdaşlığın inkişaf etdirilməsi, ortaq dəyərlərin tətbiqi, türk dünyasının zəngin irsinin dünya ictimaiyyətinə çatdırılması əsas məqsədlərdən biridir: " XIX əsrin böyük ictimai xadimi və maarifçisi Abayın yaradıcılığı türk dünyasının zəngin bədii irsinin möhtəşəm nümunəsidir. Onun Qazax yazılı ədəbiyyatının inkişafında, tənqidi realizm prinsipləri daxilində ədəbiyyatın yeni məzmun və forma qazanmasında və gənc nəslin tərbiyəsində müstəsna rolu danılmazdır. Məhz bu səbəbdən 2011-ci ilin mayında BDU-da Abay Kunanbayev adına Qazax Mərkəzi fəaliyyətə başlayıb. Mərkəzin məqsədi iki ölkə arasında mədəni və sosial əməkdaşlığın inkişafına yardım göstərmək, türk dünyasının ortaq dəyərləri kontekstində Qazaxıstanın mədəniyyəti, tarixi ilə tanış olmaq istəyənləri lazımi materiallarla təmin etməkdir. Qazaxıstanın ən nüfuzlu təhsil ocaqlarından sayılan L.N.Qumilyov adına Avroasiya Milli Universitetində isə Heydər Əliyev adına auditoriya mövcuddur. Həmin auditoriyada Azərbaycanla bağlı mütəmadi şəkildə təqdimatlar keçirilir. Ortaq əlaqələrin qurulmasında mərkəzlərin davamlı fəaliyyət göstərməsi mühümdür. Beynəlxaq Türk Akademiyası çərçivəsində Abay ilinin Azərbaycanda keçirilməsi məhz ortaq türk dünyası dəyərlərinə verilən önəmi əks etdirir".

Nazir müavini həyata keçirilən və keçirilməsi nəzərdə tutulan tədbirlərin ölkələrimiz arasında təhsil sahəsində əlaqələri daha yüksək səviyyəyə qaldıracağına inandığını bildirib.

Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdırali, AMEA-nın birinci vitse-prezidenti, akademik İsa Həbibbəyli, Türkdilli Dövlətlərin Parlament Assambleyasının Baş katibi Altınbek Mamayusupov, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY-un Baş katibinin müavini Bilal Çakıcı, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva çıxış ediblər.

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, tanınmış qırğız türkoloq, professor Kadırali Konkobayev, Türkiyənin Avrasiya Yazarlar Birliyinin başqanı Yakup Öməroğlu, Qazaxıstan Respublikası Avrasiya Milli Universitetinin professoru, türkoloq Amantay Şaripinin Abay Kunanbayevin həyat və yaradıcılığına həsr olunmuş məruzələri dinlənilib.

Mərasim bədii hissə ilə davam edib.

## Pedaqoji mühazirə qalibləri mükafatlandırılıb

**Niyazi RƏHİMOV**



Yanvarın 30-da ötən dərs ilində Təhsil Nazirliyi tərəfindən keçirilən respublika pedaqoji mühazirə qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra tədbiri giriş sözü ilə açan Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsil şöbəsinin müdiri Vəfa Yaqublu pedaqoji mühazirələrin əhəmiyyətindən danışıb. Bildirib ki, mühazirələr iki ildir ki, Təhsil Nazirliyinin təşkilatçılığı ilə mütəşəkkil formada həyata keçirilir. Tədbir iştirakçılarına pedaqoji mühazirələrdə iştirakla bağlı statistik məlumatlar verən Vəfa Yaqublu bildirib ki, pedaqoji mühazirələr rayon (şəhər) və respublika olmaqla 2 mərhələdə keçirilib. Rayon (şəhər) mərhələsində 3642 pedaqoji mühazirə dinlənilib, onlardan 182-si seçilərək respublika mərhələsinə təqdim olunub. Həmin mühazirələr Təhsil Nazirliyinin İşçi qrupu tərəfindən oxunub, 155 pedaqoji mühazirə respublika mərhələsində iştirak üçün proqrama daxil edilib.

Vəfa Yaqublu bildirib ki, mühazirələrin keçirilməsində əsas məqsəd ümumi təhsil sahəsində keyfiyyət göstəricilərinin yaxşılaşdırılması ilə bağlı aktual məsələlərə diqqəti artırmaq, təhsil işçilərinin bu barədə rəy və mülahizələrini öyrənməkdir. Eyni zamanda yaradıcı müəllim və məktəb rəhbərlərini aşkara çıxarmaq, qabaqcıl təcrübə nümunələrini təbliğ etmək və perspektiv üçün inkişafyönlü təkliflər hazırlamaq da bu sıraya daxildir. Vəfa Yaqublu keçirilən mühazirələrin pedaqoji ictimaiyyət tərəfindən maraq və rəğbətlə qarşılandığını da xüsusi vurğulayıb.

Mühazirələrin daha da təkmilləşdirilməsi, bununla bağlı müxtəlif addımlar atılacağının da anonsunu verən şöbə müdiri qeyd edib ki, mühazirələrin gələcəkdə regionlarda keçirilməsi də planlaşdırılır.

Çıxışının sonunda Vəfa Yaqublu qalibləri təbrik edib, onlara uğurlar arzulayıb.

Tədbirin sonunda qaliblər təltif olunublar. Qiymətləndirmənin nəticələrinə əsasən, 107 müəllim diplom və tərifnamələrə layiq görülüb.

## BMU aliminin yeni ixtirası ABŞ-da patent alıb

Bakı Mühəndislik Universitetinin (BMU) Kimya mühəndisliyi kafedrasının müdiri, dosent Yusif Abdullayevin ixtirası Amerika Birləşmiş Ştatlarında (ABŞ) patent alıb.

Alimin "Əvəzedicilərin elektrokimyəvi reduksiyası üçün metodlar və sistemlər" adlı ixtirasına 9 yanvar 2020-ci il tarixində ABŞ-ın Patent və Əmtəə Nişanları Ofisi tərəfindən US 2020/0010964A1 nömrəli patent verilib.

Yeni ixtira karbon dioksidin elektrokimyəvi reduksiyasından bəhs edir. Karbon dioksidin tutulması və utilizasiyası ətraf mühit problemlərinin həlli ilə yanaşı, neft-kimya məhsullarının yeni üsulla alınmasına da imkan verir.

Qeyd edək ki, son zamanlar atmosferdə karbon dioksidin miqdarının artması bir sıra problemlərə, o cümlədən qlobal istiləşməyə səbəb olur. Bunun qarşısını almaq məqsədilə dünyanın bir çox ölkələrində dövlət proqramları həyata keçirilir.

## Yeni Peşə Təhsil Mərkəzi "Şərq Motors" MMC ilə əməkdaşlığa başlayıb

Koreya peşə təhsili standartları əsasında yaradılan Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi və "Şərq Motors" MMC arasında əməkdaşlıq memorandumu imzalanıb.

Memorandumun imzalanmasında başlıca məqsəd peşəkarlıq səviyyəsinin artırılması ilə bağlı razılaşdırılmış ixtisaslar üzrə kadr hazırlığını təşkil etmək və gələcək kadr ehtiyaclarının ödənilməsi istiqamətində birgə fəaliyyət göstərməkdir.

Əməkdaşlıq çərçivəsində mərkəzdə avtomobil sahəsində təhsil alacaq tələbələrin peşəkar bacarıqlarının inkişafı məqsədilə iş yerində təcrübə proqramları, ixtisas təkmilləşdirilməsi üzrə birgə kursların keçirilməsi və məzun tələbələrin işlə təmin olunması üzrə "Şərq Motors" tərəfindən dəstək göstərilməsi də nəzərdə tutulur.

Xatırladaq ki, 2019-cu il sentyabrın 13-də fəaliyyətə başlayan Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi 2019-2020-ci tədris ilində beynəlxalq təhsil standartlarına əsaslanan və qlobal sənaye tələbatına uyğun olan rəqabətqabiliyyətli kadr hazırlığına istiqamətlənən mərkəzdir. Sumqayıt Texnologiyalar Parkı, "Cisco", "Huawei", "Mitsubishi", "EduMedia", "Subaru", "Optimal Electronics", "Tech Academy", "Honda", "Helind", "Mazda", "Azedunet", "Toyota Azərbaycan", "Mars Academy", "Turox Aero Technologies", "Baku Roofing Company", "Cahan Motors", "Sigma Tecnical Services", "Suez", "Alstom", "İKMA", "Cahan Motors", "Sumqayıt Texnologiya Data Mərkəzi" kimi qabaqcıl müəssisələr mərkəzlə əməkdaşlığa başlayıb.

## Rusiyalı mütəxəssislər BSU-da olub

Bakı Slavyan Universitetinin (BSU) rektoru, professor Nurlana Əliyeva Azərbaycanda işgüzar səfərdə olan M.İ.Rudomino adına Ümummrusiya Dövlət Xarici Ədəbiyyat Kitabxanasının Beynəlxalq fəaliyyət üzrə direktoru Svetlana Qoroxova, həmin kitabxananın Elm və təhsil fəaliyyəti üzrə direktoru Tatyana Polejayeva, Müstəqil Dövlətlər Birliyi və Şərqi Avropa ölkələri üçün Qoruma və Mühafizə Mərkəzinin koordinatoru Mariya Kolpakova, Elektron-Kitabxana Sisteminin Baş direktoru Natalya İvanova, Elektron-Kitabxana Sisteminin Layihələr üzrə koordinatoru Vita Kutuyeva, Heydər Əliyev Fondunun nümayəndəsi Tamilla Əhmədova ilə görüşüb. Görüşdə Təhsil Nazirliyinin əməkdaşları Kamran Rəsulov, İlqar Dadaşov, BSU-nun Tədris işləri üzrə prorektoru, professor Telman Cəfərov, Elmi işlər üzrə prorektoru, professor Rafiq Novruzov, Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov iştirak ediblər.



Görüş zamanı BSU-nun rektoru Nurlana Əliyeva rusiyalı nümayəndələrə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən 2000-ci ildə M.F.Axundzadə adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunun bazasında yaradılmış universitetin keçdiyi inkişaf yolu, fakültələri və ixtisasları, tədris edilən xarici dillər, professor-müəllim və tələbə heyəti, tədris prosesi, həyata keçirilən elmi tədqiqatlar, universitetin fəaliyyət istiqamətləri, son illər reallaşdırılan mütərəqqi yeniliklər, genişmiqyaslı islahatlar, beynəlxalq əlaqələr və qarşıda dayanan əsas vəzifələr barədə geniş məlumat verib. Rektor qeyd edib ki, BSU-da 10 tədris-mədəniyyət mərkəzi fəaliyyət göstərir. Onlardan ən böyüyü Rusiya Tədris-Mədəniyyət Mərkəzidir.

BSU-nun Tədris işləri üzrə prorektoru, professor Telman Cəfərov və Elmi işlər üzrə prorektoru, professor Rafiq Novruzov universitetin xarici ölkələrdə fəaliyyət göstərən tədris-mədəniyyət mərkəzləri haqqında məlumat veriblər.

Öz növbəsində rusiyalı nümayəndələr səmimi və işgüzar görüşə görə BSU-nun rəhbərliyinə təşəkkür ediblər. Görüşdə gələcək əməkdaşlıq məsələləri müzakirə olunub və müvafiq qərarlar qəbul edilib.

Sonra BSU-nun Rusiya Tədris-Mədəniyyət Mərkəzi və həmin mərkəzin Moskva və Sankt-Peterburq auditoriyaları ilə tanış olan qonaqlara mərkəzin fəaliyyəti barədə geniş məlumat verilib. Rusiya Tədris-Mədəniyyət Mərkəzində BSU-nun tələbələri qonaqlar qarşısında bədii kompozisiya ilə çıxış ediblər.

Daha sonra qonaqlar BSU-nun Əsas kitabxanasının fəaliyyəti ilə tanış olublar. Rektor Nurlana Əliyeva onlara kitabxananın strukturu, kitab fondu, kitabxananın elektronlaşdırılması, Kitabxana Şurası barədə ətraflı məlumat verib. Eyni zamanda rusiyalı mütəxəssislər BSU-dakı Qiraət zalı, Elmi-tədqiqat layihələri laboratoriyasının Tərcümə və leksikoqrafiya bölməsi və universitetin Muzeyində olublar.

Rusiyalı mütəxəssislər BSU-da həmçinin yeni istifadəyə veriləcək Nəsimi auditoriyası ilə də tanış olublar.

Sonda qonaqlar BSU-nun Heydər Əliyev Tədris Mərkəzində Rusiya Mədəniyyət-İnformasiya Mərkəzinin, Azərbaycanda Rusdilli Tədris Müəssisələri Assosiasiyasının və BSU-nun Filologiya və xarici dil müəllimliyi fakültəsinin birgə təşkilatçılığı ilə dünya ədəbiyyatının klassiki, böyük rus yazıçısı Anton Çexovun anadan olmasının 160 illiyinə həsr olunmuş "Çexov dövrü" adlı ədəbi oxular çərçivəsində "A.P.Çexov irsinin XXI əsrdə aktuallığı" mövzusunda keçirilən dinləmələrdə iştirak ediblər.

## Milli Qəhrəman şagirdlərlə görüşüb

**Niyazi RƏHİMOV**

Azərbaycanın Milli Qəhrəmanı Fariz Qəhrəmanov təhsil aldığı Bərdə rayonu Xəsili kənd tam orta məktəbində şagirdlərlə görüşüb. "Qəhrəmanlıq tarixi" mövzusunda baş tutan görüşdə məktəbin müəllim-şagird kollektivi ilə yanaşı rayon təhsil şöbəsinin əməkdaşları, Qarabağ müharibəsi veteranları, kənd sakinləri və digər şəxslər iştirak edib.

Öncə iştirakçılar Qarabağ müharibəsində şəhid olan kənd sakinləri Vüsal Mehdiyevin və Mansur Mustafayevin məzarlarını ziyarət edib, önünə gül dəstələri qoyub.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra tədbiri giriş sözü ilə açan Təhminə Qafarova Milli Qəhrəmanı məktəblərində görməkdən məmunluq hissi duyduğunu deyib. Milli Qəhrəman Fariz Qəhrəmanovun rəhbərlik etdiyi məktəbin məzunu olduğu üçün qürur hissi keçirdiyini bildirib.

Sonra iştirakçılar Qarabağ döyüşlərini və ordu quruculuğunu əks etdirən videoçarxı izləyib.

Tədbirdə çıxış edən Bərdə Rayon Təhsil Şöbəsinin müdiri Rzaqulu Şərifov şagirdlərin milli-vətənpərvərlik ruhunda tərbiyyəsində belə görüşlərin xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdırıb.

Görüşdə çıxış edən Milli Qəhrəman Fariz Qəhrəmanov Qarabağ müharibəsi ilə bağlı xatirələrini danışıb. Qanlı-qadalı müharibə haqqında söz açan qəhrəman şagirdlərə vətənə daim vicdanla xidmət etməyi tövsiyyə edib.

Tədbirdə çıxış edən Milli Qəhrəmanın döyüş yoldaşları-Salamulla Məmmədov, Cavanşir Qəhrəmanov, Vəzir Hacıyev, Qarabağ qazisi Osman Şıxıyev torpaqlarımız uğrunda gedən döyüşlərdən söz açıblar.

Sonda Milli Qəhrəman şagirdləri maraqlandıran sualları cavablandırıb.

# Mingəçevir Dövlət Universiteti strateji hədəflərə doğru

## MDU-nun Azərbaycan ali təhsilinin ümumi xəritəsindəki mövqeyini gücləndirmək fəaliyyətimizin prioritet istiqamətidir



**Şahin BAYRAMOV,**
*Mingəçevir Dövlət Universitetinin rektoru*

### Qarşılıqlı faydalı tərəfdaşlıq konsepti

Qarşımıza qoyulan hədəflərə çatmaq və MDU-nu yeni dövrün tələblərinə uyğun ali təhsil müəssisəsinə çevirmək məqsədilə ölkəmizin qabaqcıl universitetləri ilə qarşılıqlı faydalı əməkdaşlığın yaradılmasına mühüm önəm veririk. Bu konseptin reallaşdırılması istiqamətində ilkin mərhələdə Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti və Azərbaycan Texniki Universiteti ilə müvafiq anlaşma memorandumları imzalanmış, potensial əməkdaşlıq istiqamətləri razılaşdırılmış və konkret addımların atılmasına başlanılmışdır. İlkin olaraq, 2019/2020-ci tədris ilinin yaz semestrində hər üç universitetlə tələbə və müəllim mübadiləsinə start verilməsi nəzərdə tutulmuşdur.

### Azərbaycan Texniki Universiteti ilə səmərəli əməkdaşlıq

2019-cu ilin 29 noyabr tarixində MDU-da Azərbaycan Texniki Universiteti ilə birlikdə "Sosial-İqtisadi İnkişafın Dayanıqlı Enerji Təminatı: universitet - sənaye işbirliyi və innovativ kadr hazırlığı" mövzusunda I regional elmi-texniki konfrans keçirilmişdir. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi çərçivəsində təşkil olunan tədbirin əsas məqsədi energetika sisteminin kadr və elmi-metodiki təminatında universitetlərin rolu, energetikanın müasir problemləri, regionların sosial-iqtisadi inkişafının təmin olunması baxımından elektrik stansiyalarının əhəmiyyəti və digər mövzularda müzakirələrin aparılmasından ibarət olmuşdur.

Mingəçevir şəhər rəhbərliyinin, "AzərEnerji" ASC-nin səlahiyyətli nümayəndəsinin, "Mingəçevir Su Elektrik Stansiyaları Silsiləsi" MMC-nin və "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC-nin rəhbər şəxslərinin iştirakı ilə keçirilən konfransda universitet - sənaye işbirliyi mövzusunda ətraflı fikir mübadiləsi aparılmış və potensial əməkdaşlıq imkanları müəyyən edilmişdir. Mingəçevir şəhərinin ölkəmizin energetika sistemində aparıcı yer tutduğunun vurğulandığı tədbirdə əmək bazarının mövcud və potensial ehtiyaclarının öyrənilməsi, universitetlər tərəfindən istehsal müəssisələri üçün təklif oluna bilən müvafiq tədris və tədqiqat xidmətləri, mühəndis kadrların hazırlanması sahəsində energetika müəssisələrinin hər iki universitetə müvafiq dəstək göstərməsi məsələləri müzakirə olunmuşdur. Konfrans çərçivəsində "Azərbaycan İES" MMC və "Mingəçevir SES" MMC-yə səfər edən professor-müəllim və tələbə heyəti üzvləri istehsal prosesi ilə yaxından tanış olmuşlar.

Tədbir çərçivəsində "Azərbaycan Texniki Universiteti və Mingəçevir Dövlət Universiteti arasında təhsil, elm və innovasiya fəaliyyəti üzrə qarşılıqlı əməkdaşlıq haqqında" Anlaşma Memorandumu imzalanmışdır.

### İnnovasiyalar Agentliyi ilə işbirliyi

Yenə də qarşılıqlı faydalı əməkdaşlıq formulası əsas götürülməklə, 2019-cu ilin 19 dekabr tarixində MDU ilə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında İnnovasiyalar Agentliyi arasında Anlaşma Memorandumu imzalanmışdır. Sənəd iki qurum arasında innovasiya sahəsində birgə fəaliyyət, müştərək layihələrin hazırlanması və icra edilməsi, tələbə və gənclər arasında innovativ və kreativ düşüncə tərzinin formalaşdırılması, mütərrəqi texnologiyaların yaradılması və tətbiqini mənimsəyən mütəxəssislərin hazırlanması və startaplara inkubasiya xidmətlərinin göstərilməsi istiqamətlərində əməkdaşlığın yaradılmasını nəzərdə tutur.

Bu əməkdaşlığın MDU-da innovativ idarəetmə texnologiyalarının tətbiqinə və yüksək ixtisaslı kadr hazırlığının məzmununun müasir dövrün tələblərinə uyğunlaşdırılmasına mühüm töhfə verəcəyinə, eləcə də İnnovasiyalar Agentliyi ilə Mingəçevir Yüksək Texnologiyalar parkında birgə yaratdığımız "Simbioz" texnoloji biznes inkubatorun fəaliyyətində MDU tələbələri və müəllimlərinin fəal iştirak edəcəyinə əminik. Əməkdaşlıq universitet - sənaye işbirliyinin yaradılması, MDU-nun startap ekosistemindəki iştirakının genişləndirilməsi, tələbə-gənclərin biznes ideyalarının və innovativ təşəbbüslərinin dəstəklənməsi, innovasiyalar yaradılması baxımından böyük imkanlar vəd edir.

(Əvvəli qəzetin 17 yanvar tarixli sayında)

### Bakı Dövlət Universiteti - 100

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə 2019-cu ildə Bakı Dövlət Universitetinin (BDU) 100 illik yubileyi dövlət səviyyəsində qeyd olunmuşdur. Ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqının milli sərvəti kimi dəyərləndirdiyi BDU-nun 100 illik yubileyinə həsr olunan növbəti tədbirin 2019-cu ilin 30 sentyabr tarixində MDU-da keçirilməsi professor-müəllim və tələbə heyətimiz üçün mühüm hadisə kimi yadda qalmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı kimi sonralar ölkəmizdə yaradılan digər ali təhsil müəssisələrinin formalaşmasında mühüm baza rolunu oynamış BDU-nun MDU-da keçirilən yubiley tədbirində həmin universitetin böyük nümayəndə heyəti iştirak etmişdir.

Milli ali təhsilimizin flaqmanı, çoxminli professor-müəllim heyətinin cəmləşdiyi elm məbədi olan 100 yaşlı BDU-nun Azərbaycan ali təhsilinin beynəlxalq ali təhsil məkanında layiqincə təmsil olunmasında müstəsna xidmətləri vardır. Azərbaycan tarixində ilk dəfə olaraq BDU-nun 100 illik yubileyinin YUNESKO-da qeyd olunması hər bir azərbaycanlı kimi MDU kollektivinin hər bir üzvünə də böyük qürur hissi yaşatmışdır.

MDU-da tədrisin keyfiyyətinin yüksəldilməsi və universitetin Azərbaycan ali təhsilinin ümumi xəritəsindəki mövqeyinin gücləndirilməsinə hədəflənən fəaliyyətimizdə digər tərəfdaşlarla yanaşı, BDU ilə əməkdaşlığa və bir əsrlik tarixi olan bu ali təhsil ocağının təcrübəsindən faydalanmağa xüsusi önəm veririk.

MDU-da keçirilən yubiley tədbiri çərçivəsində BDU ilə MDU arasında əməkdaşlıq haqqında protokol imzalanmışdır. Sənəd iki universitet arasında tələbə mübadiləsi, kreditlərin tanınması, müəllimlərin ixtisaslarının artırılması, tədqiqat metodları üzrə təcrübə mübadiləsi, ortaq elmi tədqiqatların aparılması, birgə elmi konfransların təşkili, beynəlxalq layihələrdə iştirak və digər sahələrdə əməkdaşlığın yaradılmasını nəzərdə tutur. Qeyd olunan istiqamətlərdə qarşılıqlı faydalı real əməkdaşlığın qurulması məqsədilə artıq konkret addımlar atılır və ilk olaraq 2019/2020-ci tədris ilinin yaz semestrində tələbə mübadiləsinin reallaşdırılması gözlənilir. Yubiley ilində əsası qoyulan BDU - MDU əməkdaşlığının paytaxt və region universitetləri arasında əməkdaşlığın nümunəvi modelinə çevriləcəyinə inamımız böyükdür.

Sevindirici haldır ki, BDU-nun 100 illik yubileyi münasibətilə bu universitetin məzunları arasında elan edilmiş "BDU Xatirələrdə" yazı müsabiqəsində MDU-nun əməkdaşı Cəmilə Musayeva birinci yerə layiq görülmüşdür.

### Nəsimi - 650

Ölkə başçısı tərəfindən elan olunmuş "Nəsimi ili" çərçivəsində MDU-da çoxsaylı tədbirlər keçirilmişdir. Bu sıradan, universitetdə "Görkəmli Azərbaycan şairi İmadəddin Nəsiminin həyat və yaradıcılığı" mövzusunda keçirilən oxucu konfransını qeyd etmək olar. Konfransda "Klassik Azərbaycan ədəbiyyatında İmadəddin Nəsimi fenomeni", "Poeziyamızın Nəsimi zirvəsi", "Nəsiminin həyat və yaradıcılığı", "Nəsimi və Azərbaycan ədəbi dili", "Nəsimi və ümumi danışıq dili", "Nəsimi dövründə ictimai-siyasi vəziyyət" və "Nəsimi dövründə Azərbaycan mədəniyyəti" mövzularında məruzələr dinlənilmişdir. Tədbirdə tələbələr Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustadı Nəsiminin qəzəllərindən ibarət ədəbi-bədii kompozisiya ilə çıxış etmişlər.

MDU-nun professor-müəllim və tələbə kollektivi Azərbaycanın mütəfəkkir şairinə həsr olunmuş digər tədbirlərdə, o cümlədən Mingəçevir şəhərində Nəsiminin 650 illik yubileyi münasibətilə təşkil edilən ümumşəhər tədbirlərində də fəal iştirak etmişlər.

Universitetimiz Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə 29 sentyabr tarixində Şamaxıda keçirilən "Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalı"na qatılan yeganə ali təhsil müəssisəsi olmuşdur.

Eyni zamanda, MDU Nəsiminin 650 illik yubileyi ilə əlaqədar Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın bir gündə 650 min ağacın əkilməsi təşəbbüsünə fəal qoşulmuş və dekabr ayında keçirilmiş ağacəkmə aksiyasında kollektiv üzvləri yaxından iştirak etmişlər.

### Gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin BDU-nun 100 illik yubileyi münasibətilə keçirilən mərasimdəki nitqindən irəli gələn vəzifələrin icrası ilə bağlı Təhsil nazirinin 9 dekabr 2019-cu il tarixli müvafiq əmri ilə təsdiq edilmiş Fəaliyyət Planı MDU Elmi Şurasının genişləndirilmiş iclasında ətraflı müzakirə olunmuşdur. Fəaliyyət Planına uyğun olaraq, MDU-da tərbiyə işinin təkmilləşdirilməsi, təhsialanların vətənpərvərlik ruhunda tərbiyəsi, Azərbaycan tarixinin tədrisinin təkmilləşdirilməsi və tələbələrlə ideoloji işin gücləndirilməsi istiqamətində həyata keçirilməsi nəzərdə tutulan konkret məsələləri əhatə edən Tədbirlər Planı hazırlanır.

Bu yöndə reallaşdırılan fəaliyyətin əsas nümunələrindən biri kimi, 2019-cu il 24 dekabr tarixində universitetdə "Vətənpərvərlik - Vətənə xidmətin ali zirvəsidir" mövzusunda tədbir keçirilmişdir. Mingəçevir şəhər Gənclər və İdman İdarəsi və Mingəçevir Peşə Məktəbi ilə birgə təşkil etdiyimiz tədbirin əsas məqsədi tələbə-gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi, onlarda dövlətimizə və milli-mənəvi dəyərlərimizə hörmət hissinin aşılanması olmuşdur. 2016-cı ilin aprel döyüşləri şəhidlərinin valideynlərinin, aprel döyüşləri şəhidinin övladının və həmin döyüşlərin iştirakçılarının qatıldığı tədbirdə Azərbaycanın müstəqilliyi uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsinin daim böyük hörmət və ehtiramla anıldığı bildirilmiş, şəhidlərimizin keçdiyi şərəfli yolu öyrənməyin və təbliğ etməyin vacibliyi diqqətə çatdırılmışdır.

### Könüllülük fəaliyyətinin dəstəklənməsi

Fəaliyyətimizdə rəqabətqabiliyyətli mütəxəssis hazırlığına, innovativ yanaşmaya əsaslanan təhsil imkanlarının yaradılmasına, gənclərin intellektual səviyyəsinin artırılmasına və onların məntiqi təfəkkürünün inkişafına xüsusi diqqət yetiririk. Tələbələrimizi seçdikləri ixtisasa dərindən yiyələnməyə, kitabı sevməyə, informasiya-kommunikasiya texnologiyalarını yaxşı mənimsəməyə, xarici dilləri öyrənməyə, kommunikasiya bacarıqlarını gücləndirməyə, təşəbbüskarlığa, intellektual oyunlar və idmanla məşğul olmağa, komanda işinə və könüllülüyə sövq edirik.

Tələbələrin könüllülük fəaliyyətinə aktiv cəlb olunması üçün bütün zəruri şəraiti yaradırıq. Bu istiqamətdə daha çox Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Bir" Tələbə-Könüllü Proqramının və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN xidmət) "ASAN Könüllüləri" təşkilatının təqdim etdiyi imkanlardan faydalanırıq. Əlavə olaraq, hazırda Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin təşəbbüsü ilə yaradılan "Turizm Könüllüləri" Təşkilatı İctimai Birliyi ilə əməkdaşlıq imkanlarını müzakirə edirik. Tələbə-könüllülərimiz həm universitetdə, həm də Mingəçevir şəhərində keçirilən çoxsaylı tədbirlərin təşkilində könüllü qismində iştirak edirlər.

Əminik ki, möhtərəm Prezidentimiz tərəfindən 2020-ci ilin ölkəmizdə "Könüllülər ili" elan edilməsi bu istiqamətdəki fəaliyyətimiz üçün daha geniş imkanlar yaradacaqdır.

### "ASAN xidmət" ilə birgə layihələr

Cəmiyyət həyatının "asan"laşdırılmasına xidmət edən və Azərbaycan brendi kimi bütün dünyaya səs salan "ASAN xidmət"lə ortaq fəaliyyətin yaradılmasına xüsusi əhəmiyyət veririk. Regionda yerləşən MDU-da çevik idarəetmə mexanizminin yaradılması, şəffaf təhsil mühitinin formalaşdırılması və tələbələrimizdə müasir dövrün tələblərinə uyğun innovativ bacarıqların inkişaf etdirilməsi baxımından bu əməkdaşlıqdan gözləntimiz çoxdur. Bu məqsədlə, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində olan Mingəçevir "Asan Həyat"





kompleksi ilə ilkin təmaslar qurulmuşdur.

Bu çərçivədə atılan ilk addım olaraq, MDU "ASAN Könüllüləri" Təşkilatı və "Coca-Cola" Fondunun birgə təşkilatçılığı ilə həyata keçirilən "ASAN İnkişaf Modeli - Qadınların işgüzar inkişafı" mövzusunda təlimlərə dəstək vermişdir. Layihə çərçivəsində Mingəçevir və ətraf ərazilərdə yaşayan qadınlar üçün turizm sahəsində sahibkarlıq imkanları və karyera üzrə təlimlər keçirilmişdir. Əsasən MDU tələbələrinin qatıldığı təlimlər ümumilikdə 150-dən çox iştirakçını əhatə etmişdir. Nüfuzlu beynəlxalq təlimçilərin cəlb olunduğu layihəni region gənclərinin sahibkarlıq bacarıqlarının inkişaf etdirilməsi və onların məşğulluq potensialının gücləndirilməsi baxımından mühüm töhfə hesab edirik.

MDU ilə Mingəçevir "Asan Həyat" kompleksi arasında növbəti birgə layihələrin həyata keçirilməsini nəzərdə tuturuq.

### Tələbələr üçün inkişaf təlimləri

Tələbələrin mövcud tədris planlarında nəzərdə tutulmayan mövzular üzrə müxtəlif formatlı təlim və seminarlara cəlb olunması diqqət mərkəzində saxlanılır. Bu sıradan, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin Mingəçevir şəhər Məşğulluq Mərkəzi tərəfindən "Karyerada ilk addım" mövzusunda təşkil olunan təlim, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun dəstəyi ilə Gənclər üçün Təhsil Mərkəzi tərəfindən reallaşdırılan "Sabahın sahibkarları" layihəsi çərçivəsində MDU-da təşkil olunan "İnsan Mühəndisliyi" proqramı tələbələrin böyük marağına səbəb olmuşdur.

Bundan başqa, tələbələrimiz Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ) tərəfindən həyata keçirilən "Qafqazda aztəminatlı məcburi köçkünlərin və yerli əhalinin iqtisadi və sosial inkişafı" (EPIC) layihəsi çərçivəsində təqdim olunan "İş Qatarı" proqramında, Hindistan Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyi, Bakı Gənclər Mərkəzi və Mingəçevir Gənclər Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən "Student Solar Lamp Workshop" layihəsində fəal iştirak etmişlər.

### Beynəlxalq əməkdaşlıqda prioritetlər

Sürətlə dəyişən və qlobal xarakter alan əmək bazarı üçün yüksək ixtisaslı kadr hazırlığında beynəlxalq tələbə və müəllim mübadiləsinin xüsusi önəm daşıması qənaətindəyik. Buna görə də MDU-nun qabaqcıl xarici universitetlərlə əməkdaşlığının inkişafına və bu yöndə Erasmus+ proqramının imkanlarından faydalanmağa çalışırıq.

Bu baxımdan, MDU ilə İspaniyanın Vallodolid Unversiteti arasında Erasmus+ proqramı çərçivəsində tələbə mübadiləsini ayrıca qeyd etmək lazımdır. MDU-nun iki tələbəsi hazırda sözügedən universitetdə təhsil alır və növbəti semestrdə daha üç tələbənin İspaniyaya göndərilməsi nəzərdə tutulur.

Eyni zamanda, MDU Avropa Komissiyasının Erasmus+ proqramı çərçivəsində Bakı Biznes Universitetinin koordinatorluğu ilə reallaşdırılan "Azərbaycan universitetlərində keyfiyyət təminatı mərkəzlərinin yaradılması və inkişaf etdirilməsi" layihəsində fəal iştirak edir. MDU-nun 10-dan artıq əməkdaşı layihə çərçivəsində müxtəlif vaxtlarda Azərbaycanda, Böyük Britaniyada, İsveçdə və Litvada təşkil olunan çoxsaylı təlimlərdə iştirak etmişdir. Əldə olunan yeni biliklər və qazanılan bacarıqlar MDU-da keyfiyyətin təminatı mexanizminin müasir dövrün tələbləri səviyyəsində qurulmasına şərait yaradır.

Beynəlxalq əməkdaşlığın inkişafının dəstəklənməsi məqsədilə universitetimiz 2019-cu ildə Bolonya prosesi üzrə İşçi Qrupunun növbəti iclasında (Helsinki), X Rusiya-Azərbaycan Regionlararası Forumunda (Moskva) və "Ali təhsil islahatları ekspertlərinin illik konfransı"nda (Praqa), eləcə də İsveçdə, Koreyada, Litvada və Ukraynada keçirilmiş beynəlxalq təlimlərdə təmsil olunmuşdur.

### Mükafatlar və nailiyyətlər

5 oktyabr - Beynəlxalq Müəllimlər Günü münasibətilə Təhsil nazirinin müvafiq əmri ilə MDU-nun iki əməkdaşının "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanı, beş əməkdaşının isə "Azərbaycan Respublikası Təhsil Nazirliyinin Fəxri Fərmanı" ilə təltif olunması kollektiv üzvləri tərəfindən böyük sevinc hissi ilə qarşılanmışdır.

Sevindirici haldır ki, Ümummilli Liderin zəngin irsinin öyrənilməsi və təbliği istiqamətində görülən işlərin nəticəsi olaraq, Heydər Əliyev Mərkəzinin təşkilatçılığı və Təhsil Nazirliyinin dəstəyi ilə 2019-cu ildə keçirilən "Heydər Əliyev və Azərbaycan tarixi" VI ümumrespublika bilik yarışında MDU 8-ci yeri tutmaqla 49 ali təhsil müəssisəsi arasında 14-18-ci yerləri bölüşmüşdür.

Eyni zamanda, 2019/2020-ci tədris ili üçün keçirilən qəbul imtahanlarında yüksək bal toplamış dörd tələbəmiz Azərbaycan Respublikası Təhsil Nazirliyinin təsis etdiyi "Gələcəyin müəllimi" təqaüdünə layiq görülmüşdür.

Bundan başqa, MDU-nun "Qarabağ" komandası "Vətəndaş Cəmiyyətində Debat" İctimai Birliyi tərəfindən digər tərəfdaşlarla birlikdə keçirilmiş "Mingəçevir Gənclərinin Regional Debat Forumu: Payız 2019" yarışının qalibi olmuşdur.

Layihəməqsədli fəaliyyətin və təşəbbüskarlığın dəstəklənməsi nəticəsində universitetimizin dörd tələbəsi və bir əməkdaşı Azərbaycan Respublikasının Gənclər Fondunun 13-cü qrant müsabiqəsinin qalibləri olmuşlar.

Əlavə olaraq, MDU tələbəsi BP Şirkəti tərəfindən "Azəri-Çıraq-Günəşli" layihəsinin 25 illiyi münasibətilə keçirilən müsabiqənin ölkə üzrə üç qalibindən biri seçilmişdir.

### Birgə əməkdaşlıqdan yaranan enerji

Yeni dövrün reallıqlarına və kreativ düşüncəli tələbə kontingentinin istəklərinə uyğunlaşmağa çalışdığımız fəaliyyətimizdə dövlətimizin, o cümlədən Azərbaycan Respublikasının Təhsil Nazirliyinin, Mingəçevir şəhər İcra Hakimiyyətinin və digər tərəfdaşlarımızın davamlı dəstəyindən faydalanırıq. Məhz bu dəstək və qarşılıqlı faydalı əməkdaşlıq formulu elm, təhsil və innovasiyaların üzvi vəhdətinə əsaslanan müasir və rəqabətqabiliyyətli universitetin qurulmasına şərait yaradır.

# “Ən böyük arzum Qarabağımızı geri almaqdır”

## “Dünya uşaqların gözü ilə”

**Vəfa SÜLEYMANOVA,**
*Bakı şəhəri, 53 nömrəli tam orta məktəbin coğrafiya müəllimi*

İnsanların virtual aləmdən asılılığı onlar arasında emosional bağları zəiflətmiş, dostluq anlayışını dəyişmişdir. Ağıllı telefonlar ən yaxın dosta çevrilmişdir. Bu, xüsusən uşaqlarda ünsiyyət problemi yaradır, onlarda tənhalıq hissini gücləndirir.

Uşaqlarda söz demək və söz eşitməyə tələbat yaranmışdır, onları səbrlə dinləyəcək birisinə ehtiyacları vardır.

Məhz bu səbəbdən çalışdığım Bakı şəhəri, 53 nömrəli tam orta məktəbdə yeni bir layihəni həyata keçirdim. Məktəbimizdə guşə yaradıldı, poçt qutusu yerləşdirildi, bütün siniflər məlumatlandırıldı ki, şagirdlər fikir və düşüncələrini bizimlə paylaşa bilsinlər. Poçt qutumuza yönəlmiş ən maraqlı məktublar nümayiş olundu, uşaqların diqqətçəkən ifadələri “fikir guşəsi”ndə özünə yer aldı.

Uşaqların sadəcə uşaq olduqları üçün bacarmadıqları işləri reallaşdırmağa kömək etmək, problemlərini danışmağa kimisə tapmadıqları vaxtda axtardıqları “o insan” olmaq, onları daha çox nələrin narahat etdiyini araşdırmaq, beləcə, yaş psixologiyasını daha dərindən öyrənmək idi məqsədimiz. Layihəmiz uşaqlar arasında gözlədiyimizdən də artıq marağa və dəstəyə səbəb oldu.

10-13 yaş arasındakı şagirdlər öz fikir və problemlərini daha həvəslə bizimlə bölüşürdülər. Məktubların təhlilindən aldığım nəticələrlə gəlin, dünyamıza uşaqların gözü ilə bir də baxaq.

Azyaşlıları daha çox dostluq münasibətləri narahat edir, dünyanı gəzmək, bir də arzusunda olduğu oyuncağı əldə etmək istəyi.

“...Bəzi uşaqlar dost üçün ayrı-seçkilik salırlar və uşaqlar tənhalaşır. Buna bir çarə tapılmalıdır”(4-cü sinif şagirdi).

Başqa bir 10 yaşlı balamız isə, ağlayan “smaylik” şəkli çəkərək şikayətlənir: “Mənim dostumun adı Kövsərdir. O mənə deyir ki, guya mən onun dostuyam. Amma mən onun adını səhv yazanda, o, necə dostdursa, mənə qışqırır və küsür. Deyir ki, barışmaq üçün mənə nə isə verməlisən”.

Təəssüflə aşkarladım ki, 13 yaşlılar arasında artıq daha dərinləşmiş ixtilaflar mövcuddur. Sinifdə




təkləndiyindən qorxu içində şikayətlənən şagirdimizin kimliyi araşdırılıb, ona yaxından kömək göstərildi. Valideyn təcavüzündən şikayətlənən 6 yaşlıya da lazımi tədbir görüldü. Bu məsələlərdə məktəbin rəhbərliyi, psixoloqu, məktəblinin dostları da yaxından dəstək oldular.

Bəzən şagirdlər ətrafdakı insanların yalan və riyakarlığının həyatlarını çətinləşdirdiyindən şikayətlənir, amma nikbin ruhlu məktublarımız da yox deyildi.

Özünü gələcəyin kinq-boks uzrə dünya çempionu kimi görən Məhəmməd Əliyevin məktubunun nümayişi digərlərinə gözəl örnək idi: “...Yarışların bir qaydası var - udmaq və uduzmaq. Məğlub olanda ruhdan düşmək olmaz. Zamanla çəkilən zəhmətin bəhrəsini görəndə - bayrağımızı yüksəklərə qaldıranda, bir daha “yaxşı ki, yorulmaq nədir bilməmişəm, hər çətinliyə dözmüşəm” deyirsən... Kim olursan ol, nəyə sahib olursan ol, heç vaxt ürəyindən mərhəməti, həyatından yaxşılıqlar etməyi əskik etmə!.. Bir-birimizə hörməti və sevgini heç vaxt unutmayaq, nəyə sahib olsaq da!”.

Bizə məktəbin ictimai həyatı ilə bağlı təkliflərlə müraciət edənlər də tapıldı. Hətta dərs cədvəlinə aid öz təklif və iradlarını bildirənlər də. Düşünürəm ki, dərs cədvəlinin tərtibində onların fikirlərini də nəzərə almaq yaxşı olardı.

Ailədaxili münasibətlərdə şikayətlərlə yanaşı, səmimi etiraflar da oldu: “İstəyirəm, anam sevinsin” və ya “Atam çox ciddi və çalışqandır. O, heç vaxt gülmür. Biz çalışırıq ki, onu güldürək” (Göründüyü kimi, böyüklər üçün adi görünən məsələ uşaqlar üçün böyük problemə çevrilə bilər). Başqa bir səmimi etiraf: “Mən futbolçu olmaq istəyirəm. Amma atam universitetə qəbul olmağımı istəyir. Atamın ürəyini qırmamaq üçün çalışıram. O, elə bilir ki, mən bacardığım qədər çalışıram. Amma əslində, mən bacardığımdan daha az çalışıram. Atam bunu bilsə, qəlbi qırılacaq”.

Boşanma faktoru ilə bağlı problemlər də məktublarda öz əksini tapdı. Belə ailələrdə uşaqların necə sarsıntı keçirdiyi, ətrafdakılar tərəfindən necə sorğu-suala tutulduğu və bundan əziyyət çəkdiyi, mənəvi cəhətdən tez böyüdükləri, ətrafdakılara bunu rəva bilmədiklərini dilə gətirdilər. Təəssüflə bildirmək istərdim ki, şagirdlərin məktublarında problem situasiyalar daha çox işıqlandı.

Nəhayət, ürəkaçan bir məktub: “Sizlərin təklifindən xoşum gəldi. Amma mənim anam mənimlə yaxşı məşğul olur. Mən hər şeyi anamla bölüşürəm. O, mənə nəyin düz, nəyin yanlış olduğunu başa salır”.

Şagirdlərimiz 20 Yanvar, Xocalı faciələrinə də toxunmuş, “kaş, bu faciələr olmayaydı” - deyə şəhidləri yad edirlər, Qarabağ probleminə münasibət bildirib, vətənin, xalqın mənafeyi uğrunda çalışmaq istədiklərini dilə gətirirlər: “Azərbaycanda yaşadığıma görə çox xoşbəxtəm. Mən öz gözəl Vətənimin bütün bölgələrində olmuşam. Ancaq Qarabağımı gəzməmişəm. Mən inanıram ki, orda da olacağam! Bizim igidlərimiz, cəsurlarımız, qəhrəmanlarımız var. Mən də öz vətənim üçün canımdan keçməyə hazıram. Ən böyük arzum - Qarabağımızı geri almaqdır!”.

Sonda onyaşlıların arzularını nəzərinizə çatdırım: “İstərdim ki, bütün dünyada sülh olsun! Hamı mehriban olsun, bir-birinə hörmət etsin və bir-birini başa düşsün. Torpaqlarımız işğaldan azad olsun, təbiətə zərər verilməsin, çoxlu ağaclar əkilsin, dünyanın çox hissəsi yaşıllıq olsun, hamı uzunömürlü, sağlam olsun, xəstələr şəfa tapsın, küçədə yaşayanların evi olsun, uşaqlar dərslərini yaxşı oxusunlar və sevdikləri ixtisasa yiyələnsinlər, pulu olmayanlar da təhsil alsınlar. Hamı şad yaşasın!”.

Bu arzuları oxuduqca, düşünürsən ki, kaş, böyüklər də dünyaya məhz uşaqların gözü ilə baxa biləydi. O zaman, dünya onların dediyi kimi daha “əlvan və maraqlı” olardı, müharibələr, qətllər olmazdı. Çünki uşaq üçün qarşısındakının dərisinin rəngi, dini, gözlərinin rəngi heç bir fərq etmir. Onlar sadəcə dost axtarır. Düşündüklərini paylaşa biləcəyi bir dost!

Bu layihənin köməyilə şagirdlərin ciddi problemləri vaxtında aşkarlanıb, məktəb tərəfindən lazımi tədbirlər görüldü, məktəbimizdə tərbiyəvi işin keyfiyyəti xeyli yüksəldi.

## “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktorun müavini**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı “Mətbuat şöbəsi”
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 2085, **Sifariş** 366

**Məsul növbətçi:** Ş.Cəfərov

# Məktəblilərin beynəlxalq idman uğurları

Bakı məktəblilərinin beynəlxalq yarışlarda əldə etdiyi uğurların sırası genişlənməkdədir.



Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki 270 nömrəli tam orta məktəbin V sinif şagirdi Cansu Əhmədzadə karate üzrə Gürcüstanda keçirilən beynəlxalq turnirdə qalib gələrək Azərbaycan bayrağını qaldırıb, himnimizi səsləndirib. Bu qalibiyyətinə görə Cansu Əhmədzadə qızıl medal və diplomla mükafatlandırılıb.

Paytaxtdakı 25 nömrəli tam orta məktəbin X sinif şagirdi Sübhan Əsgərov cüdo idman növü üzrə 60 kiloqram çəki dərəcəsində Türkiyədə keçirilən beynəlxalq yarışda qalib gəlib. Sübhan Əsgərov bu qalibiyyətinə görə qızıl medal və diplomla mükafatlandırılıb.

213 nömrəli tam orta məktəbin XI sinif şagirdi Zaur Məmmədov karate üzrə Azərbaycanda keçirilən açıq Avropa çempionatında 70 kiloqram çəki dərəcəsində qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Məktəbli qızıl medal və diploma layiq görülüb.

Eyni yarışda uğurla çıxış edən digər məktəbli isə 191 nömrəli tam orta məktəbin IV sinif şagirdi Şükran Həsənovdur. Belə ki, Şükran Həsənov karatenin iki növü üzrə 35 kiloqram çəki dərəcəsində nümunəvi çıxış edərək II yerə layiq görülüb. Məktəbli gümüş medal və diplomla mükafatlandırılıb.

# Etibarsız sayılır

**Abşeron rayon** Ceyranbatan qəsəbə 1 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Əliyev Samir Şakur oğluna verilmiş B-025611 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**15 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2010-cu ildə Xudayarova Yeganə Sabir qızına verilmiş BB-055523 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 4 nömrəli tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Səmədova Gülnar Xudabaxış qızına verilmiş A-570949 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2011-ci ildə Ələkbərov Mahal Fərhad oğluna verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı Avrasiya Universiteti** tərəfindən 2011-ci ildə Vəliyev Fərid Eldar oğluna verilmiş B-226874 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** 10 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Fətiyev Xosrov Tofiq oğluna verilmiş A-044891 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** Qaraxanlı kənd tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Hüseynov Elmir Məmməd oğluna verilmiş A-743220 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** I-Yeddioymaq kənd tam orta məktəbi 2011-ci ildə bitirmiş Məmmədzadə Mədinə Əziz qızına verilmiş A-055741 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 4 nömrəli HTML 2010-cu ildə bitirmiş Cəbrayılzadə Nurlan Hidayət oğluna verilmiş B-719260 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lerik rayon** Soru kənd tam orta məktəbi 2009-cu ildə bitirmiş Əlizadə Turan Əlican oğluna verilmiş B-651670 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy şəhər** 1 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Həsənov İlkin Taryel oğluna verilmiş A-544002 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Q.Allahverdiyev adına Şiştəpə kənd tam orta məktəbini 2015-ci ildə bitirmiş Aşırov Şahsun Mahir oğluna verilmiş A-428005 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 37 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Məmmədli Məhəmməd Azər oğluna verilmiş A-344982 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş Kənd Təsərrüfatı Texnikumu** (indiki Ağdaş Dövlət Humanitar Kolleci) tərəfindən 1992-ci ildə Kazımov Bəhər Səfər oğluna verilmiş RT-I-110080 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** S.Babayev adına Əsgərabad kənd tam orta məktəbini 2001-ci ildə bitirmiş Muradov Cəlil İnşalla oğluna verilmiş A-547858 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** 5 nömrəli tam orta məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Məmmədova Əfsanə Maarif qızına verilmiş B-576530 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2006-cı ildə Osmanov Ravil Ziyyəddin oğluna verilmiş B-071587 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** Yasab oba kənd ümumi orta məktəbin IX sinfini 1996-cı ildə bitirmiş Məmmədquliyeva Aytən Rəsul qızına verilmiş B-050340 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Qusar şəhər** 3 nömrəli tam orta məktəbi 2002-ci ildə bitirmiş Kiçikbəyov Faik Şamil oğluna verilmiş A-590271 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** Qalacıq kənd tam orta məktəbin IX sinfini 2000-ci ildə bitirmiş Sərdərova Aygün Vadim qızına verilmiş B-396569 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2001-ci ildə Məmmədova Xalidə Əli qızına verilmiş AB-I-077783 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 4 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Zaidova Günel Hikmət qızına verilmiş B-298174 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 153 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Dadaşov Nicat Həsən oğluna verilmiş A-429562 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 47 nömrəli tam orta məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Astaxova Lyudmila Vladimirovnaya verilmiş 294 nömrəli müvəqqəti arayış itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Sosial-İqtisadi Kolleci** tərəfindən 2015-ci ildə Axundov Aqşin Asim oğluna verilmiş A-057878 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Dövlət Universiteti** tərəfindən 2005-ci ildə Haqverdiyeva (İsmayılova) Kəmalə Fikrət qızına verilmiş B-043932 nömrəli bakalavr diplomuna əlavə və 2007-ci ildə verilmiş MNB-014752 nömrəli magistr fərqlənmə diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Kolleci** tərəfindən 2009-cu ildə Məmmədova Mehparə Fərrux qızına verilmiş BB-II-083986 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 104 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Həsənova Təranə Aley qızına verilmiş A-019985 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli rayon** Qaravəlli kənd tam orta məktəbini 2014-cü ildə bitirmiş Vəliyev Yusif Qismət oğluna verilmiş A-478344 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2017-ci ildə Bayramov İsmət Etibar oğluna verilmiş A-134541 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Babək rayon** Şəkərabad kənd tam orta məktəbi 2008-ci ildə bitirmiş Nəsirov Həsən Vəli oğluna verilmiş B-476053 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Dondar Quşçu kənd tam orta məktəbini 1998-ci ildə bitirmiş Sadıqova Mənzərə Salman qızına verilmiş A-239115 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2007-ci ildə Məmmədov Aqşin Qorxmaz oğluna verilmiş B-102968 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 1997-ci ildə Vəliyeva Vəfa Niyazi qızına verilmiş AB-I-072582 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Dövlət Universiteti** tərəfindən 2012-ci ildə Cəbrayılova Ülviyə Adil qızına verilmiş B-252814 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2007-ci ildə Rüstəmova Kəmalə Məhəmməd qızına verilmiş B-090073 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Babək rayon** Sirab kənd orta məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Həsənov Elçin Elşad oğluna verilmiş B-704430 nömrəli natamam orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Müəllimlər İnstitutu Mingəçevir filialı** tərəfindən 2008-ci ildə Süleymanova Aytən Mahir qızına verilmiş B-136110 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Qazax rayon** Kəmərli kənd tam orta məktəbini 2015-ci ildə bitirmiş Kazımov Emin Nəbi oğluna verilmiş A-445572 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şamaxı rayon** Məlikçobanlı kənd tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Kərimova (Bəşirova) Aydan Haviz qızına verilmiş A-736224 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Dəmir Yolu Liseyi** tərəfindən 1998-ci ildə Vəliyev Ceyhun Vahid oğluna verilmiş AB-026988 nömrəli diploma əlavə qiymət cədvəli itdiyi üçün etibarsız sayılır.

**Neftçala rayon** Bankə qəsəbə 2 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Heydərli Ülvi Mübariz oğluna verilmiş B-651013 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** 2 nömrəli məktəb-liseyi 2016-cı ildə bitirmiş Qasımov Elsevər Vidadi oğluna verilmiş A-570745 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** 2 nömrəli məktəb-liseyi 2016-cı ildə bitirmiş Rəcəbli Ağxan Tərxan oğluna verilmiş A-570782 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Surra kənd tam orta məktəbi 2000-ci ildə bitirmiş Şirəliyev Tural Əfsər oğluna verilmiş A-433248 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə şəhər** akademik Zərifə Əliyeva adına məktəb-liseyin IX sinfini 2008-ci ildə bitirmiş Mahmudova (Bayramova) Həbibə Ərşad qızına verilmiş A-732459 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2006-cı ildə Qasımova Gülmirə Həsən qızına verilmiş B-067127 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Türk Liseyini** 2010-cu ildə bitirmiş İbrahimli Fərmin Tahir oğluna verilmiş B-665965 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Nəsimikənd kənd tam orta məktəbini 1979-cu ildə bitirmiş Rəqimov Aydın Mirzo oğluna verilmiş A-222157 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax rayon** Kövər kənd tam orta məktəbini 1994-cü ildə bitirmiş Almədətov Cavad Zakir oğluna verilmiş A-000346 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 201 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Camalova Aysel İlham qızına verilmiş A-301302 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyeva, Həmkarlar İttifaqı Komitəsi və professor-müəllim heyəti BSU-nun Azərbaycan filologiyası fakültəsinin dekanı, professor Eldar Piriyevə əzizi

**GÜLŞƏN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“Azərbaycan müəllimi” qəzetinin kollektivi iş yoldaşları Rəşad Ziyadova nənəsi

**ŞAHNİSƏ ZİYADOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı şəhər 240 nömrəli tam orta məktəbin direktoru Esmira Məmmədova və pedaqoji kollektivi İdris Axundzadəyə anası, məktəbin sabiq direktor müavini

**SOLMAZ İSA QIZI RƏSULOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.



# Tullantıdan incəsənətə

## 189-190 nömrəli məktəbin şagirdləri məişət tullantılarından istifadə etməklə incəsənət nümunələri hazırlayıblar

⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**

### 14 ümumtəhsil müəssisəsindən başlayan hərəkat

Müsabiqə Təhsil Nazirliyinin Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi və "Nargis" jurnalının birgə təşkilatçılığı ilə reallaşdırılır. Ekoloji maarifləndirilmə sahəsində məktəblilərin bilik və bacarıqlarını artırmaq, yaradıcı qabiliyyətlərini aşkara çıxarmaq, ətraf mühiti qorumaq və ekoloji problemlərin həlli yollarının araşdırılmasına kömək etmək məqsədilə həyata keçirilən" "Tullantıdan incəsənətə" müsabiqəsi Bakıdakı 14 tam orta məktəbi əhatə edir. Həmin təhsil müəssisələrinin arasında Bakı şəhəri 189-190 nömrəli tam orta məktəbin VI-VII sinif şagirdləri də var və onlar topladıqları tullantılardan hazırladıqları əl işləri ilə qonaqlarının - "Nargis" jurnalının baş redaktoru Ülviyyə Mahmudova, Təhsil Nazirliyinin Məktəbdənkənar fəaliyyətin təşkili şöbəsinin müdiri Vasif Məmmədov, Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin direktoru Firuzə Sultanzadə, məktəb rəhbərliyi və təşkilatçı qurumların nümayəndələrinin qarşısına çıxıblar.

### Plastik qapaqlardan robot insan

Hər biri özünə güvənir, hazırladığı işdən danışmaqdan yorulmur. Ətraf mühiti qoruya bilmək üçün nə edə biləcəklərinin fərqindədirlər. Zibil qutusunda gedib təbiətə qarışaraq - torpağa, suya, orada yaşayan canlılara ən ağır zərərlər verəcək materialları tanıyır, onlarla necə davranacaqlarını bilirlər.

Məsələn, Nuranə Məmmədova plastik qapaqlardan robot insan düzəldib: "Küçələrə atılan qapaqları görəndə hirslənirdim. Belə tullantılar torpağı zəhərlədiyindən onun bizə verdiyi məhsul da zəhərli olur".

Nuranə təbiətə həssas münasibəti ilə yanaşı, həm də əl işlərinə marağı ilə seçilir. İndiyədək əlinə keçən lazımsız əşyalardan özünə çoxlu oyuncaqlar düzəldib: "Oyuncaqlar, aksessuarlar düzəltməyi hələ balacalıqdan xoşlayıram. Çoxlu belə işlərim olub. Əlimə keçənlərdən özüm üçün oynaya biləcəyim müxtəlif oyuncaqlar düzəldirdim. Bu müsabiqə barədə eşidəndə sevindim. Düşündüm ki, nəhayət, kimsə mənim əl işlərimə qiymət verəcək".

### "Plastik su qabından məktəb ləvazimatı düzəltdim"

Xəyalə Hüseynzadə cürbəcür məktəb ləvazimatları düzəldib. Plastik su qabı və parçadan yeni il aksessuarı hazırlayıb: "Plastik su qabından məktəb ləvazimatı - qələm qabı kimi istifadə edə biləcəyim aksessuar düzəltdim. Yaşıdlarıma demək istəyirəm ki, arzuladıqları, ancaq ala bilmədikləri, ya da onlara lazım olan hər hansı əşyanı başqa lazımsız əşyalardan, tullantılardan düzəldə bilərlər".

Murad Əmirov isə rəngli qələmləri yığa biləcəyi siyirməli qab düzəldib: "2 köhnə jurnal və telefon qutusundan istifadə edib qələmqabı düzəltdim. Atamla anam da bunu düzəltməkdə mənə kömək etdilər. Siyirməsinə pozan qoyuram. İndi Novruz Bayramına hazırlaşıram. Bu bayramı əks etdirəcək əl işində Kosa, tonqal və tonqalın üstündən tullanmağa hazırlaşan uşaqları təsvir edəcəyəm".

Mina Quliyeva texnologiya fənnini çox xoşlayır. Həm tikməyi, həm də düzəltməyi sevir. Əl işləri hazırlamaq ən çox sevdiyi işdir: "İnsanlar təbiəti qorumaq barədə düşünmür, onu çirkləndirirlər. Məncə, biz insanlar tullantıları dəyərləndirməyi öyrənməliyik. İstifadəyə yararsız şeyləri atmaq əvəzinə, onlardan yeni əşyalar düzəldə bilərik. Köhnə geyimlərdən, plastik qutulardan hazırlanan aksessuarlar təzə aldığımız qədər qəşəng, ancaq aldıqlarımızdan daha qiymətli olur. Mən bu müsabiqəyə köhnə geyimdən düzəltdiyim çanta ilə qatıldım".

### "Anama ev işlərində kömək etmək üçün tozsoran düzəltdim"

Fatin Abdullayevin əlindəki tozsoran isə hər kəsin diqqətini cəlb edir. Dediyinə görə, bu balaca cihaz onun da, anasının da işinə yarayır: "Anam yeməkqabımı atacaqdı. Mən isə plastik materialdan hazırlanan bu yemək qabından istifadə etməyə qərar verdim və elektriklə çalışan tozsoran düzəltdim. Cihazımı şəbəkəyə qoşan naqili də uzun qoydum. Çünki əsl tozsoranlarda da belə olur.Tozsoranımın yandırıb-söndürən düyməsi və uzun xortumu var. Bununla anama kömək eləmək istədim. Yemək yeyəndən sonra kiçik qırıntıları bununla təmizləyirəm".

### Kartondan avtobus

Elcan Şərifovun avtobusu isə turistləri gəzdirir: "Tur avtobuslardan çox xoşum gəlir. Onlara qarşı xüsusi həvəsim var. Avtobusumun üzərinə Azərbaycanın bayrağını yapışdırmışam. Avtobusu hazırlayarkən kartondan, disklərdən və plastik çöplərdən istifadə eləmişəm. Karton avtobusumun təkərləri lazımsız diskdəndir".

### Konfet qutusundan təndir, diş çöpündən odun şələsi

Taleh Xancanov qədim zamanlarda nənələrin çörək bişirdiyi təndiri əks etdirib: "Qutuda konfetim vardı. Konfeti yedim, qabından isə nənəyə təndir düzəltdim. Diş çöplərindən nənəyə odun şələsi qoydum".

Qədim nənələrin həyatından bir epizodu canlandırmaq üçün parça, karton, taxtadan istifadə edən Taleh artıq 3-cü əl işini yaradıb.

### Mirəlinin saatı, Emilin dibçəyi, Lalənin silahı

Mirəli Qasımovun saatında isə zaman durub. Domino daşlarından düzəltdiyi saat onun ətraf mühitin dərdini anlamağa başladığı vaxtı göstərir: "Daşlarının çoxu itmiş dominonu tullamadım. Mən ondan saat düzəltmək üçün istifadə elədim. Qutudan və köhnə saatın əqrəbindən də yararlandım. Birinci işimi bir həftə əvvəl tamamladım. Yumurta qabıqlarından gül düzəltmişdim".

Emil Əliyev plastik su qabından dibçək kimi istifadə etməyə qərar verib: "Gedib mağazadan ayrıca dibçək almağa ehtiyac yoxdu. Məktəblilərə demək istəyirəm ki, qarşılarına çıxan plastik qablara gül əkə bilərlər. Hazırladığım bu güldanın içərisinə nərgizgülü əkmişəm. Hər gün ona həvəslə su verirəm. Güllə sinfimizdə qulluq edirəm".

Lalə Kərimova isə tarix kitabının səhifələrində gördüyü aləti də düzəldib, təxəyyülündə yaratdığı maşını da: "Düzəltdiyim bu alətdən qədim insanlar istifadə edib. Onlar bu alətlə düşmənə ağır daşlar atıb. İkinci əl işim isə gəmidir. Gəmim həm üzür, həm də uça bilir".

### "Təqdim olunan hər işdə yaradıcılıq, inkişaf var"

Şagirdlərinin əl işlərindən və bu işlərlə yaşıdlarına verdikləri ismarıcdan məmnun qalan müəllimləri deyir ki, onlar dostlarını da bu prosesə cəlb ediblər. Həm tullantıların toplanmasında, həm də işinin ortaya çıxmasında taytuşları ilə birgə işləyiblər. Bununla onlar dostlarını da gördükləri işin əhəmiyyətinə inandırıblar.

189-190 nömrəli tam orta məktəbin biologiya və STEAM müəllimi Elnarə Nərimanova müsabiqənin şagirdlər arasında yaratdığı rezonansdan təəccüblənib: "Bu müsabiqə barədə VI-VII siniflərə məlumat verdim. Qısa zaman sonra heç bir istiqamət almadan uşaqlar çox maraqlı əl işləri gətirdilər. 20 əl işi nəzərdə tutsaq da, rəqabət və həvəs bu limitimizi aşdı". Bu işdə onlar üçün əsas məsələ qalib olmaq deyil, uşaqların ətraf mühiti necə qoruyacaqlarını öyrənməsidir: "Bizim üçün əsas bu layihədə iştirak etməkdir. Qazanıb-qazanmayacağımızdan asılı olmayaraq, uşaqların bu mövzuda axtarış, araşdırma və bacarıqları ortaya çıxacaq, inkişaf edəcəklər. Hər bir iş onu göstərir ki, onlar düşünüblər, araşdırıblar. Ortaya çıxan iş estetik olmaya bilər. Ancaq hər birində yaradıcılıq, inkişaf var. Elə uşaqlarımız var ki, gələcəkdə onun maraqlı kəşflərinin olacağına şübhə etmirəm. VI sinifdə oxuyan, ona verilən sualla bağlı ağlagəlməz təkliflər, ideyalar irəli sürən şagirdlərimiz çoxdur. Əminəm ki, çox yox, IX, XI sinfə çatanda həmin uşaqların böyük bir layihəsi olacaq. Məsələn, Fatin hər STEAM dərsinə özünün bir ideyası, işi ilə gəlir. Onunla bağlı çox böyük ümidlərimiz var".

### Məqsədimiz odur ki, uşaqlar plastikin xeyrini-zərərini anlasın

"Rəssamam. Kölgə rəssamı olsam da, tullantılardan sənət nümunəsi hazırlanması ilə maraqlanıram. Mən də, adətən, ikinci əl metallardan istifadə edirəm".

189-190 nömrəli tam orta məktəbin şagirdlərinin işindən məmnun qalan rəssam Rəşad Ələkbərov hesab edir ki, uşaqlarda indidən təbiət üçün təhlükəli sayılan məmulatlarla davranmaq vərdişi formalaşsa, təbiətin insanla bir problemi qalmaz: "Məktəblilərə təkrar emal haqqında məlumat verdim. Ümumiyyətlə, sadəcə bu müsabiqə çərçivəsində deyil, "Nargis" jurnalı ilə birgə başqa layihəmiz də olub. Biz uşaqlara anlatmağa çalışırıq ki, atdıqları plastik su qabları, məsələn, suda yaşayan canlılara hansı ziyanı vurur. Biz onlara bu informasiyanı ona görə veririk ki, plastikin xeyrini və zərərini anlasınlar. Ekoproblem nədir, bilsinlər. Bu problemin qarşısını necə almağı öyrənsinlər. Təbiətə ziyan vuran şeyləri necə zərərsizləşdirmək olar? Bunun üçün nədən necə istifadə etməlidirlər? Onlar bütün bunları öyrənəndən sonra təbiətə ziyan vuran tullantılarla mübarizə aparmaq çətin olmayacaq. Bundan sonra onlara suya qarışmaq ehtimalı olan plastikdən, torpağa qarışacaq rezindən başqa nə cür istifadə edə biləcəklərini deyir, hətta həmin tullantıları sənət nümunəsinə çevirməyi öyrədirik. Prosesə məktəbləri qoşmaq məhz bu məqsədə xidmət edir".

### Bu hərəkat bütün ölkə məktəblilərini əhatə edəcək

Təhsil Nazirliyinin sektor müdiri Qeyrət Şirəliyevin sözlərinə görə, artıq 10-a yaxın ümumtəhsil müəssisəsində məktəbdaxili seçmələr aparılıb. Hələlik, sadəcə Bakı şəhərindəki ümumtəhsil məktəblərinin qoşulduğu layihənin gələcəkdə bütün ölkə ərazisindəki məktəblərdə keçirilməsi də nəzərdə tutulur. İlk dəfə həyata keçirilən layihənin məktəbdaxili seçmələr mərhələsi mart ayına qədər davam edəcək. O vaxta qədər Bakıdakı məktəblər öz nümunələrini Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinə təqdim edə biləcəklər: "2019-cu ilin noyabr ayından start verilən "Tullantılardan incəsənətə" müsabiqəsində Bakı şəhəri üzrə 14 ümumtəhsil məktəbi iştirak edir. Əsasnaməyə uyğun olaraq hər məktəb tədris ili boyunca tullantılardan müxtəlif incəsənət nümunələri hazırlayaraq ən yaxşı işi respublika mərhələsinə təqdim etməlidir. 14 ümumi iş münsiflər tərəfindən ayrıca seçiləcək. Seçilənlər arasından 3 qalib yer müəyyən edilib mükafatlandırılacaq".

Beləliklə, 189-190 nömrəli məktəbin şagirdləri kağız, plastik kütlə, rezin məmulat və müxtəlif məişət tullantılarından istifadə etməklə hazırladıqları incəsənət nümunələrini qiymətləndirmələri üçün mütəxəssislərin ixtiyarına verdilər.

Xatırladaq ki, yekunda müsabiqənin qalibləri təşkilatçılar tərəfindən mükafatlandırılacaq, qaliblər və layihə barədə ətraflı məlumat "Nargis" jurnalında işıqlandırılacaq.



# Məktəblilər yol hərəkəti təhlükəsizliyi ilə bağlı maarifləndirilir

**Rövşən AĞAYEV**

Prezident İlham Əliyevin 27 dekabr 2018-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nın və Təhsil Nazirliyinin müvafiq əmrinə uyğun olaraq nəzərdə tutulan məsələlərin həyata keçirilməsi ilə bağlı Qazax rayonunun ümumtəhsil məktəblərində bir sıra tədbirlər görülüb.

Belə ki, ümumtəhsil məktəblərinin şagirdləri arasında yol hərəkətinin təhlükəsizliyi mövzusunda müsabiqə təşkil olunub. Müsabiqədə Qazax şəhər 1, 2, 3, 4, 5 nömrəli tam orta məktəblərin, məktəb-liseyin şagirdləri iştirak ediblər. Müsabiqədə Qazax şəhər 5 nömrəli tam orta məktəbin komandası I, şəhər 2 nömrəli tam orta məktəbin komandası II, məktəb-liseyin komandası isə III yerlərə layiq görülüblər. Qarşılıqlı diskussiya şəraitində keçən tədbirdə məlumatların daha yaddaqalan və təsirli olması üçün əyani vasitələrdən istifadə edilib, iştirakçıların yol hərəkəti təhlükəsizliyinin təşkili ilə bağlı fikirləri öyrənilib.

Rayonun təhsil müəssisələrində "Yol hərəkəti qaydaları uşaqların gözü ilə" adlı maarifləndirici tədbirlər də keçirilib. Bu tədbirlərdə qeyd edilib ki, sözügedən Dövlət Proqramının əsas məqsədi yol-nəqliyyat hadisələrinin, xüsusilə də ölümlə və sağlamlığa zərər vurulması ilə nəticələnən yol-nəqliyyat hadisələrinin sayının, habelə ölkə iqtisadiyyatına və ekologiyasına dəyən ziyanın həcminin azaldılması üçün zəruri tədbirlər görməkdir.

Qazax Rayon Təhsil Şöbəsinin tabeliyində olan Uşaq-Gənclər İnkişaf Mərkəzinin (UGİM) və Qazax Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi bölməsinin birgə təşkilatçılığı ilə keçirilən tədbirin əsas məqsədi ictimai nəqliyyat vasitələrinin sürücülərini daha məsuliyyətli və cəmiyyətə qarşı daha qayğıkeş olmağa səsləmək, piyadaların və sərnişinlərin yol hərəkəti təhlükəsizliyi qaydaları ilə bağlı məlumatlılıq səviyyəsini yüksəltmək, piyadaları özlərinin və başqalarının təhlükəsizliyi məqsədilə daha məsuliyyətli olmağa çağırmaq, ictimai nəqliyyatdan istifadə edən sərnişinlərə öz ictimai və vətəndaş öhdəlikləri, hüquqları haqqında məlumat vermək, orta məktəblərdə təhsil alan uşaq və yeniyetmələrin yol hərəkəti təhlükəsizliyi qaydaları ilə bağlı məlumatlılığını artırmaq olub.

Tədbirdə Qazax Rayon İcra Hakimiyyətinin məsul işçisi Gülnar Quliyeva, Rayon Polis şöbəsinin Dövlət Yol Polisi bölməsinin rəisi, baş leytenant Vüqar Məmmədov, bölmənin təbliğat və təşviqat üzrə inspektoru, polis kapitanı Elxan Əhmədov və digər əməkdaşları, həmçinin Qazax Uşaq-Gənclər İnkişaf Mərkəzinin rəhbərliyi, məktəblilər, valideynlər iştirak edib.

Mərkəzin direktoru Gövhər Rəhimova keçirilən tədbirin məqsəd və əhəmiyyətindən danışıb. Qazax UGİM olaraq hər zaman maarifləndirici tədbirlərə üstünlük verdiklərini, dərnək üzvlərinin bu cür tədbirlərdə fəallıq nümayiş etdirdiklərini söyləyib.

Rayon Polis şöbəsinin Dövlət Yol Polisi bölməsinin rəisi Vüqar Məmmədov da vətəndaşların, eləcə də orta məktəblərdə təhsil alan uşaq və yeniyetmələrin yol hərəkəti təhlükəsizliyi qaydaları haqqında maarifləndirilməsi baxımından belə tədbirlərin böyük əhəmiyyət daşıdığını bildirib. İstər Qazax UGİM, istərsə də digər müəssisələr tərəfindən keçirilən bu cür tədbirləri yüksək qiymətləndirib, hər zaman dəstək olmağa hazır olduqlarını vurğulayıb.

Qazax şəhərinin Heydər Əliyev prospekti ilə H.Z.Tağıyev küçəsinin kəsişdiyi işıqforda baş tutan tədbirdə ictimai nəqliyyatdan istifadə edən sərnişinlərə, fərdi avtomobil və taksi sürücülərinə, eləcə də digər yol hərəkəti iştirakçılarına yol hərəkəti təhlükəsizliyi və ictimai nəqliyyatdan istifadə qaydaları ilə bağlı zəruri məlumatlar çatdırılıb, onlara yol hərəkəti zamanı davranış qaydaları əyani şəkildə izah edilib.